YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
30 avqust
2024-cü il,
cümə
№ 157 (6743)
Qiymәti
60 qәpik



Milli azadlıqdan
şirin nemət yoxdur!



# Azərbaycan və Türkiyə həmişə bir-birinin yanındadır

## İlham Əliyev Dünya Etnoidman Konfederasiyasının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Bilal Ərdoğan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

Dünya Etnoidman Konfederasiyasının fəaliyyətini yüksək qiymətləndirən Azərbaycan Prezidenti əldə olunmuş uğurlar münasibətilə təbriklərini çatdırdı. Dövlətimizin başçısı ölkəmizin Konfederasiyada fəal təmsil olunduğunu bildirərək, Azərbaycan idmançılarının bu qurumun yarışlarında uğurla iştirak etdiklərini dedi.

Görüşdə ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin olduğu bir daha qeyd edildi, Azərbaycanın və Türkiyənin həmişə bir-birinin yanında olduqları vurğulandı.



# YAP Mərkəzi Aparatında görüş

Bax səh. 4

# Bakı - Moskva münasibətlərində yeni mərhələ

Bax səh. 3

# Orta Dəhlizin və Zəngəzur dəmir yolunun yeni xətti...

Bax səh. 3

# ETX xəbərdarlıq edir...

Bax səh. 7

# Hələ də ümid edirlər...

Bax səh. 8



# Hörmətli seçici!

**2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcəkdir. Ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə - Yeni dövrə Yeni Azərbaycanla qatılır.**

Çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycanın bütün uğurları və möhtəşəm qələbələri Heydər Əliyev yolu ilə bağlıdır. Müstəqillik dönəmində Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər Azərbaycanın ən yeni tarixinə müstəqil dövlət quruculuğu, sosial-iqtisadi inkişaf və beynəlxalq aləmdə mövqelərimizin möhkəmlənməsi dövrü kimi həkk olunmuş, tarixi Zəfərimizin bünövrəsi qoyulmuşdur.

Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirərək varislik prinsipi əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən dövlət başçısı, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ölkəmizə misilsiz tarixi nailiyyətlər qazandırmışdır. Bu uğurların zirvə nöqtəsi isə 30 ilədək Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi - Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasıdır.

# UĞURLARIMIZIN QISA TƏSVİRİ:

1. İctimai-siyasi sabitlik, milli təhlükəsizlik, vətəndaş həmrəyliyi və xalq-iqtidar birliyi təmin olunmuş, ölkəmizdə azərbaycançılıq ideologiyası əsasında dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızın vahid yumruq kimi birləşərək Azərbaycanın qarşısında duran ən ümdə vəzifənin yerinə yetirilməsinə - tarixi ədalətin bərpasına, respublikamızın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsinə nail olunmuşdur.

2. Tarixiliklə müasirliyin vəhdəti təmin olunmaqla xalqımızın mədəni irsinin qorunması, milli-mənəvi dəyərlərimizə zidd təsirlərin qarşısının alınması, adət-ənənələrimizin yaşadılması istiqamətində sistemli fəaliyyət həyata keçirilmiş və mühüm nəticələr əldə edilmişdir.

3. Azərbaycan milli maraqlara əsaslanan müstəqil xarici siyasət sayəsində bir çox dövlətlərlə dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri quraraq dünyada etibarlı tərəfdaşa çevrilmiş, mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməklə regional və qlobal müstəvidə mövqeyini möhkəmləndirmiş və Cənubi Qafqaz regionunun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilərək müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutmuşdur.

4. Demokratik, hüquqi, dünyəvi və unitar dövlət quruculuğu uğurla həyata keçirilmiş, "hakimiyyətin mənbəyi xalqdır" prinsipinə və plüralizmə əsaslanan siyasi sistemin formalaşdırılması sağlam rəqabət mühitində demokratik inkişafa təkan vermişdir.

5. Bütün sahələri əhatə edən çoxşaxəli islahatlar müasir çağırışlara və reallıqlara uyğun, ardıcıl olaraq davam etdirilmiş, dövlət idarəçiliyinin səmərəliliyi və vətəndaş məmnunluğu artırılmış, Azərbaycan dünyada müstəqil siyasət yürüdən, özünəməxsus inkişaf yolu olan islahatçı ölkə imici qazanmışdır.

6. Köklü sosial-iqtisadi islahatlar yolu ilə bazar iqtisadiyyatına keçid təmin edilmiş, əlverişli biznes mühiti yaradılmış, müasir infrastruktur quruculuğu, qlobal enerji və nəqliyyat layihələri reallaşdırılaraq iqtisadiyyatın davamlı və dayanıqlı inkişafına nail olunmuşdur.

7. İnsan amili və vətəndaş mənafeyinə əsaslanan sosialyönümlü islahatlar nəticəsində əhalinin həyat şəraiti yaxşılaşdırılmış, hər bir fərdin səmərəli məşğulluğa və layiqli əməyə çıxışı üçün bütün imkanlar yaradılmış, cəmiyyətin bütün təbəqələri, o cümlədən şəhid ailələri, müharibə iştirakçıları və əlilliyi olan şəxslər, qaçqın və məcburi köçkünlər kimi sosial cəhətdən həssas qruplar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuşdur.

8. Müasir ordu quruculuğu sahəsində sistemli tədbirlərin həyata keçirilməsi nəticəsində silahlı qüvvələrin maddi-texniki bazası möhkəmləndirilmiş, mənəvi-psixoloji hazırlıq səviyyəsi yüksəldilmiş, Azərbaycan regionda ən güclü orduya və inkişaf etmiş müdafiə sənayesinə malik dövlətə çevrilmişdir. 44 günlük Vətən müharibəsində və 2023-cü ildə həyata keçirilmiş bir günlük antiterror əməliyyatında qazanılan qələbələr sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam təmin olunması Silahlı Qüvvələrimizin qüdrətini əyani şəkildə nümayiş etdirmişdir.

9. Ölkəmizdə tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına uyğun gənclər siyasətinin reallaşdırılması ilə mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli, sağlam və zəngin mənəviyyatlı vətənpərvər Azərbaycan gəncliyinin formalaşmasına nail olunmuşdur.

10. Ekoloji problemlər daim diqqət mərkəzində saxlanılaraq ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın təmin olunması, su ehtiyatlarının, meşələrin bərpası və mühafizəsi, yaşıllıqların salınması ilə bağlı bir çox tədbirlər həyata keçirilmiş, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilmişdir.

11. Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuş, bu məqsədlə Dövlət Proqramı qəbul edilmiş, keçmiş məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması üçün işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işlərinə başlanılmış, mühüm infrastruktur layihələri gerçəkləşdirilmiş, iqtisadi fəaliyyətin bərpası və təşviqi istiqamətində məqsədyönlü tədbirlər görülmüşdür.

# Hörmətli seçici!

Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoymuşdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını, üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə, milli və regional təhlükəsizliyin təmin olunmasına hədəflənmiş müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranmış, qarşımızda yeni perspektivlər açılmışdır.

Hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir.

# YENİ DÖVRÜN YENİ HƏDƏFLƏRİ:

1. Fərdin, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin etməklə sabitlik mühitinin qorunması, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri və ideoloji təxribatlarla fəal mübarizə aparmaqla ölkəmizin ərazi bütövlüyü, suverenliyi və konstitusiya quruluşuna qarşı hər cür təhdidlərin qarşısının qətiyyətlə alınması.

2. Azərbaycançılıq ideologiyası əsasında xalqımızın milli kimliyi və mədəni müxtəlifliyinin, əsrlərlə formalaşmış milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, o cümlədən ailə institutumuzun mənfi təsirlərdən qorunması, tarix və mədəniyyətimizin daha geniş tədqiq və təbliğ edilməsi, mədəniyyətlərarası dialoq siyasətini davam etdirməklə multikulturalizm və tolerantlığın mənəvi dəyərlərimizin tərkib hissəsi kimi təşviqi.

3. Dövlətlərarası münasibətlərin inkişaf etdirilməsi, beynəlxalq platformalar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində çoxşaxəli işbirliyinin gücləndirilməsi, regionda sülhə və təhlükəsizliyə nail olmaq üçün ardıcıl təşəbbüslər göstərilməsi, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri də daxil olmaqla mövcud geostrateji imkanlardan səmərəli istifadə etməklə, çoxvektorlu enerji siyasətini və "yaşıl enerji" gündəliyi əsasında fəaliyyəti davam etdirməklə beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi, xarici ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinin gücləndirilməsi və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, islamofobiya və neokolonializm meyillərinə qarşı fəal mübarizə aparılması, dost ölkələrin siyasi partiyaları ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi.

4. Qanunun aliliyinin təmin edilməsi, insan və vətəndaş hüquqlarının, söz, fikir və ifadə azadlığının qorunması, demokratik təsisatların gücləndirilməsinə və vətəndaş cəmiyyətinin inkişafına xidmət edən tədbirlərin davam etdirilməsi, dövlət orqan və qurumlarında, özəl sektorda şəffaflığın daha da artırılması üçün ictimai institutlara dəstəyin gücləndirilməsi, demokratik inkişaf naminə siyasi partiyalarla fəal dialoq və konstruktiv əməkdaşlığın davam və inkişaf etdirilməsi.

5. İdarəetmədə səmərəliliyin artırılması məqsədilə institusional və struktur islahatlarının davam etdirilməsi, siyasi sistemin inkişaf etdirilməsi və yeni siyasi konfiqurasiyanın möhkəmləndirilməsinə yönəlik təşəbbüslərin reallaşdırılması, dövlətin tənzimləmə funksiyalarının əhatəliliyinin artırılması üçün onların tam rəqəmsallaşdırılması və məmur-vətəndaş təmasının minimuma endirilməsi.

6. İqtisadiyyatın şaxələndirilməsi, xarici təsirlərə dayanıqlılığının gücləndirilməsi, valyuta ehtiyatlarının və adambaşına düşən milli gəlirin artım dinamikasının, maliyyə sabitliyinin qorunması, iqtisadi idarəetmənin müasirləşdirilməsi, daha sağlam rəqabətə əsaslanan sahibkarlıq mühitinin inkişaf etdirilməsi, yüksək biliktutumlu və müqayisəli üstünlüyə malik sahələr üzrə dəyər zəncirinin artımının stimullaşdırılması, müasir infrastruktur quruculuğunun sürətləndirilməsi, ölkənin tranzit-logistika potensialının genişləndirilməsi və beynəlxalq nəqliyyat layihələrində fəal iştirakının davam etdirilməsi, kənd təsərrüfatının ənənəvi sahələrinin inkişaf etdirilməsi, ərzaq və qida təhlükəsizliyinin təmin olunması, regionların sosial-iqtisadi yüksəlişi və insan kapitalının inkişafı üzrə tədbirlərin davam etdirilməsi, ekoloji təmiz iqtisadi fəaliyyətin təşviqi və "yaşıl enerji" məkanının yaradılması istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi.

7. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, fəal məşğulluq tədbirlərinin həyata keçirilməsi, sosial infrastruktur quruculuğunun davam etdirilməsi və sosial xidmətlərin genişləndirilməsi, yeni istehsal sahələrinin yaradılması ilə iş yerlərinin sayının artırılması, özünüməşğulluq proqramının genişləndirilməsi, əməkhaqqı, pensiya və müavinətlərin artırılması siyasətinin, həssas qruplara, o cümlədən aztəminatlı ailələrə, əlilliyi olan şəxslərə, müharibə iştirakçılarına və şəhid ailələrinə hərtərəfli dövlət qayğısının davam etdirilməsi.

8. Ordunun hərbi-texniki təchizatının, silahlı qüvvələrdə mənəvi-psixoloji hazırlıq səviyyəsinin, hərbçilərin sosial müdafiəsinin və təminatının daha da gücləndirilməsi, gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi, beynəlxalq müstəvidə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində hərbi-texniki əməkdaşlıq və müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi, mövcud və proqnozlaşdırılan təhlükə və təhdidlərin xarakteri və miqyası nəzərə alınmaqla ölkənin müdafiə qabiliyyətinin daha da yüksəldilməsi.

9. Milli-mənəvi dəyərlərə sadiq vətənpərvər gəncliyin formalaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətin, Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafı, təhsil və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, məşğulluğu və karyera quruculuğu, elmi, mədəni, innovativ və yaradıcılıq potensialının artırılması, könüllülər hərəkatının inkişafı üzrə tədbirlərin davam etdirilməsi.

10. İqtisadi inkişafla ekoloji mühit arasında tarazlığı qorumaqla ətraf mühitin mühafizəsi, yaşıllıqların bərpası və artırılması, su ehtiyatları və enerji resurslarından səmərəli istifadə olunması, yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməsi, "yaşıl enerji"nin dünya bazarlarına nəqli və iqlim dəyişmələrinin fəsadlarına qarşı fəal mübarizə tədbirlərinin davam etdirilməsi, "yaşıl dünya" naminə təşəbbüsləri reallaşdırmaqla beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi və əhalinin ekoloji maariflələndirilməsi işinin genişləndirilməsi.

11. İşğaldan azad olunmuş ərazilərdə - Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinin davam etdirilməsi, regionun iqtisadi potensialından səmərəli istifadə olunması ilə ölkə iqtisadiyyatına reinteqrasiyasının həyata keçirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, "yaşıl enerji" konsepsiyası əsasında ekoloji təmiz texnologiyaların tətbiqi ilə ətraf mühitin qorunması, dayanıqlı və layiqli məskunlaşmanın təmin edilməsi.

Biz bütün bu hədəfləri yalnız sizin dəstəyinizlə reallaşdıra bilərik.

# Bakı - Moskva münasibətlərində yeni mərhələ

## Azərbaycanın regional inkişaf və təhlükəsizlik məsələlərində tutduğu mövqe əsas götürülür

## Ölkəmiz iqtisadi-ticari münasibətlərin yeni sxemini hazırlayır - Ermənistan burada yer almaq istəyirsə...

Cənubi Qafqaz regionun siyasi-iqtisadi tənzimləyicisi sayılan Azərbaycanın xarici siyasət kursu yaxın əməkdaşlıq, milli maraqlara söykənən tərəfdaşlıq kontekstinə əsaslanır. Ölkəmizin digər ölkələrlə, xüsusilə region dövlətləri ilə münasibətdə əlverişli və özündə hər iki tərəf üçün mühüm dividentləri əks etdirən ştrixlərə üstünlük verməsi münbit zəmin formalaşdırıb - bu xüsusda, qonşu dövlətlərlə münasibət ayrıca xətt kimi qeyd edilməlidir. Azərbaycan bölgə dövlətləri ilə yaxın qonşuluq əlaqələrinin gücləndirilməsində, strateji əməkdaşlığın ən üst səviyyəyə qaldırılmasında və geniş əməkdaşlıq platformalarının qurulmasında maraqlı olduğunu hər zaman önə çəkib.

Rusiya ilə münasibətlər də analoji komponentləri özündə əks etdirir. İki dövlət arasında geniş diapazonlu, çoxşaxəli və fərqli sahələr üzrə mühüm əlaqələr mövcuddur. Bu münasibətlər həm geosiyasi, həm də geoiqtisadi cəhətdən hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edir - Azərbaycanın coğrafi mövqeyi, onu Rusiya üçün Cənubi Qafqazda strateji tərəfdaş edir.

### Strateji müttəfiqliyin güclənməsinə xidmət edəcək tərəfdaşlıq

Təsadüfi deyil ki, iki dövlətin rəhbər şəxsləri arasındakı münasibətlər də yaxın dostluğa söykənir. Rusiya Prezidentinin avqustun 18-də Bakıya etdiyi dövlət səfəri çərçivəsində dövlət başçılarının Birgə Bəyanatı qəbul edilmiş, çoxsaylı Anlaşma memarandumları imzalanmışdı. Prezident Putin bildirmişdi ki, Rusiya Azərbaycanla çoxplanlı dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir. Bu münasibətlərin əsasını bərabərlik, bir-birinin maraqlarını nəzərə almaq və əlbəttə, əsrlər boyu xalqlarımızı birləşdirən sıx insani və mədəni bağlar təşkil edir.

Avqustun 28-də isə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Dövlət başçıları Prezident Vladimir Putinin Azərbaycana dövlət səfərinin nəticələrindən məmnunluqlarını ifadə ediblər. Prezidentlər səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətin Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq və strateji müttəfiqlik münasibətlərinin daha da güclənməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.

Vurğulandığı kimi, Rusiya ilə Azərbaycan arasında çoxşaxəli - enerji, yükdaşıma, iqtisadi, ticari tərəfdaşlıq, humanitar və regional təhlükəsizliklə bağlı mühüm əməkdaşlıq mövcuddur. Bu nöqteyi - nəzərdən regionun iki əsas dövlətinin mütəmadi olaraq bölgəsəl inkişaf və təhlükəsizlik məsələləri ilə bağlı müzakirələr aparması təbiidir. Nəzərə alınmalıdır ki, son 4 ildə mühüm bir coğrafiyada əsaslı və yeni reallıqlar formalaşdırmış Azərbaycan həm də qarşıdakı dövr üçün müasir ticari münasibətlərin qurulmasında



əsaslı rolu üzərinə götürüb. Proseslərin özəyində yer alan rəsmi Bakı regional enerji təhlükəsizliyinin təminatında olduğu kimi, iqtisadi-ticari əməkdaşlıq platformalarının qurulmasında da ön planda yer tutur. Bu baxımdan, həmsərhəd dövlətlər ilə yaxın qonşuluq münasibətləri saxlayan Azərbaycanla aparılan məsləhətləşmələr gələcək perspektivin daha aydın müəyyənləşdirilməsi nöqteyi-nəzərdən də vacib amilə çevrilib.

### Sülh üçün səfərbərlik...

Bölgənin potensial inkişafı, müasir çağırışlara və tələblərə cavab verən şərtləri özündə əks etdirməsi olduqca mühüm məqamlardır. Rusiyanın da bu və ya digər şəkildə təmsil olunduğu vacib regional layihələr var ki, onların reallaşması yeni ticari situasiya formalaşdıracaq. Məsələn, Şimal-Cənub Dəhlizi və onun Şərq-Qərb aortası ilə qovuşması məsələsi mühüm iqtisadi amil kimi gələcək perspektivdə əsaslı yer tutur. Qeyd edək ki, bu məsələlər Prezident Putinin Bakıya səfəri zamanı da geniş müzakirə olunmuşdu. Təbii ki, iqtisadi planların, layihələrin qüsursuz və yüksək səviyyədə təmin olunması üçün regionda ilk növbədə sülhün olması vacib şərtdir - bu məsələ, Putinin Bakı səfəri zamanı da qeyd olunmuşdu. Rusiya dövlət başçısı bildirmişdi ki, Rusiya gələcəkdə də Azərbaycan-Ermənistan qarşılıqlı fəaliyyətinin normallaşdırılmasına və 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmalar əsasında sülh sazişinin bağlanmasına hərtərəfli kömək edəcək. Həmçinin, Putin hələ Sovet İttifaqı vaxtından Rusiyada qalan müvafiq sənədləri nəzərə almaqla, sərhədlərin delimitasiyası və demarkasiyasına, transsərhəd marşrutlarının açılmasına, humanitar təmasların yaradılmasına kömək etməyə hazır olduqlarını dilə gətirmişdi.

Telefon zəngi zamanı da sülh məsələsi aktuallığını qoruyub - söhbət əsnasında Cənubi Qafqaz regionunda vəziyyət müzakirə olunub. Vladimir Putin Rusiyanın Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dəstək verməyə hazır olduğunu deyib.

Bəli, regionun gələcək inkişafı üçün sülh əsas şərtdir və hazırda Ermənistan bu sülhün ərsəyə gəlməsinə mane olur. Fərqli kontekstlərdə siyasi manevrlərə baş vuran, başqa-başqa dövlətlərin "çətiri altına" girərək bu zamana qədər sülh və sabitlik üçün görülən işlərə də kölgə salan Ermənistan destruktiv davranış sərgiləməkdədir. Təhdidlərini davam etdirməkdən çəkinməyən, ayrı-ayrı dövlətlərin silah yardımı, hərbi təlimlərinə "arxayın" olaraq bölgədə revanşizm meylləri sərgiləyən Ermənistan bununla ən böyük pisliyi özünə etmiş olur. Halbuki 2020-ci ildə imza atdığı kapitulyasiyaya əməl etsə, Azərbaycanın və ən yaxın müttəfiqi sayılan Rusiyanın çağırışlarına cavab versə, İrəvan özünü həm müstəqil dövlət kimi təsdiq etmək, həm də iqtisadi - sosial inkişaf əldə etmək iqtidarındadır. Təəssüfləndirici haldır ki, ayrı-ayrı qrupların maraq savaşında "kiçik detal" roluna "qane olan" İrəvan əlinə düşmüş bu fürsəti dəyərləndirmir...

### Nəqliyyat dəhlizinin açılması İrəvan üçün son fürsətdir

Telefon danışığı zamanı Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, dünyada, xüsusilə bizə yaxın coğrafiyalarda baş verən hərbi-siyasi kataklizmlər Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan yeni dəhliz məsələsinin aktuallığını hər zaman qoruyur. Cənubi Qafqazda danışıqlar yolu ilə əldə edilməsi planlaşdırılan razılaşmalar günün həm siyasi, həm də iqtisadi mənzərəsinin xilası kimi dəyərləndirilə bilər - burada Ermənistanın qazancı daha böyükdür. Yaranan fürsət uzun illərdir ki, Şərq-Qərb ticari yolunun ən mühüm və strateji həlqəsi, seqmenti kimi çıxış etmə imkanına malik bu dəhliz ilə bağlı danışıqların intensivləşməsinə yolaçma ehtimalını ortaya qoyur.

Mümkün perspektivdə açılması gözlənilən nəqliyyat dəhlizi boyunca yaradılacaq dəmir və avtomobil yollarının Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya edilməsinə yol açacaq ki, bu həm Avropa, həm Asiya, həm Türk Dövlətləri Təşkilatı, həm də Çin və digər region dövlətləri üçün çox böyük əhəmiyyət daşıyır. Bu fakt ilk növbədə Avrasiyanın yeni iqtisadi mərhələyə qədəm qoymasını şərtləndirəcək.

Beləliklə, yeni dövr üçün Ermənistan həm özünün, həm də yerləşdiyi bölgənin siyasi-iqtisadi inkişaf trayektoriyasında yer almaq üçün son fürsətini də dəyərləndirməlidir. Əks halda, İrəvan yenə də qlobal iqtisadi münasibətlər sistemindən kənarda qalmaqdan və "dalan ölkə" rolunu oynamaqdan xilas ola bilməyəcək

*Pərviz SADAYOĞLU*

# Orta Dəhlizin və Zəngəzur dəmir yolunun yeni xətti...

## Qars-İğdır-Naxçıvan dəmir yolu Azərbaycanın beynəlxalq geosiyasi mövqeyini daha da möhkəmləndirəcək

Ankarada Azərbaycan və Türkiyənin xarici işlər nazirlərinin görüşü zamanı iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərinin siyasi, təhlükəsizlik, müdafiə, iqtisadi-ticari, enerji, nəqliyyat-kommunikasiya, humanitar və s. aspektləri müzakirə olunub. Tərəflər strateji müttəfiqliyin inkişafında mümühm yer tutan nəqliyyat-tranzit layihələri üzrə təmasların daha da artırılacağını və bu çərçivəyə uyğun olaraq Qars-İğdır-Naxçıvan dəmiryolu xəttinin çəkilməsinin yaxın illərdə başa çatdırılacağını bəyan edib.

Qeyd edək ki, Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti (Qars-İğdır-Naxçıvan) Prezident İlham Əliyevin irəli sürdüyü növbəti beynəlxalq əhəmiyyətli iqtisadi layihə olan Zəngəzur dəhlizinin tərkib hissəsi hesab edilir. Bakı-Tbilisi-Qars polad magistralının davamı kimi nəzərdə tutulan yeni xəttin ərsəyə gəlməsinin təşəbbüskarı da məhz İlham Əliyev olub. Bu təklifin gerçəkləşməsi üçün 2020-ci ildə "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu" imzalanıb. Həmçinin, 2021-ci ildə imzalanmış "Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin də əsas bəndlərindən biri nəqliyyat-logistika imkanlarının daha da artırılmasıdır ki, sənəddə tranzitlərin şaxələndirilməsi ilə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, o cümlədən, Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınaraq bu bölgənin mühəndis-kommunikasiya xətlərinin vahid nəqliyyat sistemlərində əlaqələndirilməsi nəzərdə tutulub. Azərbaycanı Türkiyə ilə birləşdirən quru nəqliyyat xəttinin Zəngəzur dəhlizi və bu dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun genişləndirilməsi strategiyasının mühüm tərkib hissəsi kimi İğdır-Naxçıvan yolu mühüm əhəmiyyət kəsb edir.

2023-cü il sentyabrın 25-də Naxçıvanda Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nun imzalanmasından sonra isə həmin layihənin reallaşdırılması istiqamətində əsaslı hüquqi bünövrə qoyulub, tərəflər qısa müddətdə dəmir yolunun tikintisinə yönəlmiş texniki hazırlıqları və texniki-iqtisadi əsaslandırma işlərini yekunlaşdıraraq işə başlayıb.

**Yeni dəmir yolu xətti hansı iqtisadi-siyasi əhəmiyyət kəsb edir?**

Uzunluğu 224 kilometr, 5 stansiyadan ibarət olacaq Qars-İğdır-Naxçıvan dəmir yolu layihə çərçivəsində 638 metrdən ibarət 10 körpü, 18 kilometrlik 465 suötürücü, ümumilikdə 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid tikiləcək. Layihənin 5 il müddətində başa çatdırılması nəzərdə tutulsa da, iki qardaş ölkə işləri sürətləndirərək bu nəhəng kommunikasiya xəttini daha tez istifadəyə verməyə çalışır. Azərbaycanın tarixi qələbəsindən sonra regionda yaranmış yeni reallıqlar AvroAsiya bölgəsində siyasi və iqtisadi mənzərəni tamamilə müsbət istiqamətə dəyişmək fürsətləri yaradıb. Avtomobil və dəmir yollarının tikintisi, yeni dəhlizlərin yaradılması və iki böyük qitə arasında tranzit rolunu oynamaq regionun bütün dövlətləri üçün faydalıdır. Bu baxımdan regionda baş verən sürətli nəqliyyat-logistika dəyişiklikləri, Orta Dəhlizin intensiv hərəkətliliyinin artması, eləcə də Zəngəzur dəhlizinin gerçəkləşməsi istiqamətində qətiyyətli səylərin irəliləməsi fonunda Azərbaycan və Türkiyə Qars-İğdır-Naxçıvan yolunu daha tezləşdirmək istiqamətində zəruri addımlar atmaqdadır.




Hər iki ölkə öz ərazisindən keçən Şərq-Qərb-Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirmək və ən müasir nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirməyi hədəf seçib. Hazırda Orta Dəhlizin ən mühüm nəqliyyat axınlarından biri kimi strateji əhəmiyyətini artıran Bakı-Tbilisi-Qars yolunun genişləndirilməsi sayəsində yeni nəqliyyat sxeminin əsas qolu olan Qars-İğdır-Naxçıvan dəmir yolu nəqliyyat şəbəkələrinin inteqrasiyasına səbəb olacaq. Bu dəmir yolu xətti Naxçıvan vasitəsilə Türkiyə və Avropaya çıxış imkanlarını artıracaq. Sözügedən dəmir yolu xətti Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Bu isə Naxçıvan daxil olmaqla, Azərbaycan üzərindən daşınan yüklərin həcmini artıracaq. Beləliklə, Qars-İğdır-Naxçıvan Orta Dəhlizə daxil olan digər transnəqliyyat layihələrinin də vacib qovşağı olmaqla təkcə Türkiyə və Naxçıvanı, Azərbaycanın bölgələrini birləşdirməyəcək, daha qlobal əhəmiyyətli tranzit kimi Avropa ilə Asiyanın ticarət körpüsünün bir hissəsini təşkil edəcək. Dəmir yolu Naxçıvandakı iş adamları üçün geniş imkanlar açır ki, istehsal olunan məhsullar daha geniş bazarlara çıxarılacaq. Nəticədə Azərbaycanın və Naxçıvanın beynəlxalq yükdaşımalardan əldə olunan gəlirlərinin həcmi əhəmiyyətli dərəcədə artacaq.

Dəmir yolu, eyni zamanda, Türk Dövlətləri Təşkilatı (TDT) üzvlərinin ticarətdən faydalanması üçün yeni imkanlar formalaşdıracaq, onlar arasında iqtisadi-siyasi, ticari təmasların yüksəlməsi və vahid nəqliyyat ailəsinin üzvləri kimi beynəlxalq yük daşınmalarında fəal rolunun artmasına töhfə verəcək. Həmçinin, Qars-İğdır-Naxçıvan xətti Azərbaycanın beynəlxalq geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə də imkanlar yaradacaq. Bu baxımdan layihə iqtisadi faydası ilə yanaşı, ölkəmizin siyasi-beynəlxalq nüfuzunun da artması üçün uzaqgörən strateji qərarın nəticəsi hesab edilə bilər.

*ELBRUS CƏFƏRLİ*

# YAP Mərkəzi Aparatında Türk Dövlətləri Təşkilatı beynəlxalq müşahidə missiyasının üzvləri ilə görüş keçirilib

Avqustun 29-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türk Dövlətləri Təşkilatı (TDT) müşahidə missiyasının rəhbəri, TDT baş katibinin müavini Ömer Kocaman və missiyanın digər üzvləri arasında görüş keçirilib.



Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Ömer Kocaman TDT müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verib. Onun sözlərinə görə, Azərbaycanın demokratik seçki təcrübəsi 2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin də yüksək rəqabət şəraitində - azad, şəffaf və ədalətli keçirilməsinə zəmin yaradır. Ömer Kocaman parlament seçkilərinin Azərbaycanın seçki təcrübəsinin daha da zənginləşməsinə və ölkənin inkişafına təkan verəcəyinə inamını ifadə edib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov TDT müşahidə missiyasının Azərbaycanda seçkilərin ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun keçirilməsinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. Azərbaycanın parlament seçkilərinə tam hazır olduğunu, bütün texniki və təşkilati məsələlərin yerinə yetirildiyini söyləyən Tahir Budaqov indiyədək seçki prosesinin gedişatı ilə əlaqədar hər hansı ciddi problemlərin olmadığını qeyd edib. YAP Sədrinin müavini bu seçkilərin Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etməsindən sonra bütün ölkə ərazisində keçirilən ilk parlament seçkiləri olmasının əlamətdar və qürurverici olduğunu diqqətə çatdırıb.

Daha sonra Tahir Budaqov missiyanın üzvləri - Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun İdarə Heyətinin sədri, Türkiyə Respublikasının Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Aygün Attar, TDT Katibliyinin Özbəkistandan olan layihə direktoru Murodjon Mustofaev, TDT Katibliyinin Qazaxıstandan olan layihə direktoru Yerjan Mustafin və Qırğız Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü Altınbek Kubatbekovun Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıq çərçivəsində gördüyü işlər və seçki prosesinin gedişatına dair sualları cavablandırıb.



TDT nümayəndələrinin seçkiləri müşahidə etməsinin türk dövlətləri arasında müsbət seçki təcrübəsinin mübadiləsi baxımından önəmini vurğulayan YAP Sədrinin müavini onlara fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycan demokratik dəyərlərə sadiqdir



74 saylı Masallı seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Məşhur Məmmədov yap.org.az saytına müsahibə verib.

**- Məşhur müəllim, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Seçkilərin önəmi və mövcud ictimai-siyasi reallıqlar barədə nə deyə bilərsiniz?**

- Öncə bu mühüm məqamı qeyd edim ki, parlament seçkilərinin növbədənkənar keçirilməsini şərtləndirən çox mühüm amillər mövcuddur. Bu gün qürurla Azərbaycanın tarixi Zəfərinin, ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsinin yaratdığı reallıqlardan bəhs edirik. Bu reallıqlar ölkəmizin beynəlxalq müstəvidə yerini və mövqeyini daha da möhkəmləndirir.

Azərbaycan bütün sahələrdə, o cümlədən demokratik inkişaf istiqamətində zəngin təcrübəyə malik ölkə kimi tanınır və nümunə göstərilir. Seçkilərin demokratik cəmiyyətin atributlarından olduğunu nəzərə alsaq, bu gün Azərbaycan dövlətinin prosesin şəffaflığını, beynəlxalq standartlara uyğunluğunu təmin etmək üçün atdığı addımların və onların uğurlu nəticələrinin göz önündə olduğunu görərik.

Bu seçkilərdə diqqətin azad Qarabağa və Şərqi Zəngəzura yönəlməsi hər birimizi qürurlandırır. 30 il torpaqlarımızın tarixi sahibinə qovuşmasını səbirsizliklə gözləyən soydaşlarımız bu gün doğma yurd-yuvalarında seçkilərdə iştirak edəcək, layiq bildikləri namizədlərə səs verəcəklər. Müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə edən parlament seçkilərinin keçirilməsi Azərbaycanın tarixi Zəfərinin dünyaya təqdimatıdır. Azərbaycan xalqı bu reallığın qüruru və sevincini yaşayır.

Onu da qeyd edim ki, növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün 50 beynəlxalq qurumdan və 69 ölkədən 604 nəfər akkreditə olunub. Bu rəqəmin özü seçkilərin nəinki ölkədə, eyni zamanda, beynəlxalq aləmdə də böyük maraqla qarşılandığını təsdiqləyir. Beynəlxalq müşahidəçilər işğaldan azad edilmiş ərazilərdə seçki prosesini izləyəcəklər. Onlar ermənilərin 30 illik işğal dövründə törətdikləri vəhşiliklərin, Azərbaycan dövlətinin həyata keçirdiyi genişmiqyaslı bərpa-quruculuq işlərinin şahidi olacaqlar. Xocalıda, Xankəndidə, Şuşada, bütün azad edilmiş torpaqlarda yaradılan seçki məntəqələri səsvermə prosesinə tam hazırdır.

Atılan hər bir addım Azərbaycanın demokratik imicinin möhkəmlənməsinə töhfələr verir. Əminik ki, bu seçkilər ölkəmizin demokratik inkişaf tarixində yeni dövrün başlanğıcı olacaq.

Cari il fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçirildi. Bu seçkilərdə xalqımız Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevi dəstəkləməklə Heydər Əliyev yoluna sədaqətini bir daha nümayiş etdirdi. Bütün ölkə ərazisini əhatə edən ilk prezident seçkiləri, eyni zamanda, Azərbaycanın demokratik dəyərlərə sözdə deyil, əməldə sadiq olduğunu təsdiqlədi. Heç şübhəsiz, 1 sentyabr - növbədənkənar parlament seçkiləri də Azərbaycanın demokratiya təcrübəsini zənginləşdirəcək.

**- Bu seçkilərin də favoriti, şübhəsiz, Yeni Azərbaycan Partiyasıdır. Bu reallığı şərtləndirən amillər hansılardır?**

- Cənab İlham Əliyev 2018-ci ildə prezident seçildikdən sonra andiçmə mərasimində yeni islahatların anonsunu vermişdi. 2019-cu ilin sonunda Yeni Azərbaycan Partiyası bu islahatların qanunverici orqanda da əksini tapması üçün növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Ötən parlament seçkilərindən bu günədək Azərbaycanın keçdiyi inkişaf yolu və qazandığı uğurlar göz qabağındadır.

Həmin dövrün çağırışı fərqli idi. Azərbaycanın daha da güclənməsi üçün islahatların dərinləşdirilməsinə, bütün sahələri əhatə etməsinə ciddi zərurət var idi. Yeni Azərbaycan Partiyası ötən parlament seçkilərinə "Daha güclü Azərbaycan naminə!" şüarı ilə qatılmışdı. Son dörd ildən artıq dövrün reallıqlarına diqqət yetirdikdə ölkəmizin imza atdığı möhtəşəm uğurlardan və tarixi zəfərlərdən böyük qürur hissi keçiririk. Partiyanın seçki platformasında Azərbaycanın qazandığı uğurlar və hədəflər öz əksini tapıb. Artıq torpaqlarımızın işğaldan azad edilməsi üçün göstərilən səylərdən deyil, 30 ildən sonra tarixi sahibinə qovuşan torpaqlarımızda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərindən, soydaşlarımızın bu ərazilərə qayıdışından, Azərbaycanın dayanıqlı inkişafı üçün bu bölgələrin malik olduğu iqtisadi potensialdan səmərəli istifadə olunmasından bəhs edirik. Yeni Azərbaycan Partiyasının seçki platformasında qeyd edildiyi kimi, Azərbaycan öz iqtisadi gücü hesabına, müasir texnologiyalardan istifadə və innovasiyalar tətbiq etməklə genişmiqyaslı bərpa-quruculuq işləri aparır. Ərazilərin minalardan təmizlənməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, iqtisadi fəaliyyətin bərpası və digər istiqamətlərdə atılan addımlar dayanıqlı məskunlaşmanın və müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaradır. Böyük Qayıdış Proqramı çərçivəsində görülən işlər sosialyönümlü iqtisadiyyatın inkişafı, o cümlədən məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Ötən müddət ərzində işğaldan azad edilmiş ərazilərin bərpasına 14 milyard manatdan çox vəsait yönəldilmiş, mühüm yolnəqliyyat, enerji təminatı və digər infrastruktur layihələri gerçəkləşdirilmiş, onlarla yaşayış məntəqəsinin təməli qoyulmuş və artıq bir sıra şəhər, kənd və qəsəbələrdə məskunlaşma təmin edilmişdir. Bu ilin sonuna qədər 20 min insanın azad edilmiş torpaqlara qayıtması nəzərdə tutulmuşdur.

Cənab İlham Əliyev yeni dövrün hədəflərinə nail olmaq üçün daim diqqəti iqtisadiyyatın inkişafının önəminə cəlb edir. Son 20 ildən artıq dövrün sosial-iqtisadi göstəricilərinə diqqət yetirdikdə yaradılan möhkəm təməlin davamlı uğurlara yol açdığını görürük.

Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu icrasının nəticəsi olaraq bu gün Azərbaycan qeyri-neft sektorunda da mühüm inkişaf göstəriciləri ilə diqqətdədir. Son 20 ildə qeyri neft-qaz sektorunda ümumi daxili məhsul istehsalı real ifadədə 3,5 dəfə artıb, əhalinin məşğulluq səviyyəsi yüksəlib. Əlverişli biznes mühitinin yaradılması Azərbaycana xarici investisiya qoyuluşunu sürətləndirib.

Beynəlxalq maliyyə qurumlarının hesabatlarında Azərbaycan rəqabətqabiliyyətli iqtisadiyyata malik ölkə kimi dəyərləndirilir və islahatçı ölkələr sırasında göstərilir. İqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi hazırda bölgələrin inkişafında da özünün aydın ifadəsini tapır. Belə ki, cənab İlham Əliyevin "neft kapitalını insan kapitalına çevirmək" və "iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır" çağırışlarına uyğun olaraq bölgələrin malik olduğu potensialdan səmərəli istifadə etmək üçün regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramları uğurla həyata keçirilib. Bunun nəticəsində şəhər və rayonların infrastruktur təminatı yaxşılaşıb, sahibkarlığın inkişafında mühüm irəliləyiş əldə edilib.

Yeni Azərbaycan Partiyasının seçki platformasında davamlı və dayanıqlı iqtisadi inkişafı şərtləndirən amillər və bu istiqamətdə əsas hədəflər qeyd edilib. Bildirilir ki, müasir dövrdə müstəqil Azərbaycan dövlət başçısı İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə dinamik inkişaf yolunda irəliləyir. Uğurlu sosial-iqtisadi siyasətin və sistemli islahatların həyata keçirilməsi nəticəsində əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun həcmi ildən-ilə artır. Ölkəmiz bir çox postsovet dövlətləri ilə müqayisədə həm ümumi iqtisadi gücünə, həm də milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutur.

Ötən dövr ərzində əldə edilən nailiyyətlər qarşıya mühüm vəzifələr qoyur. İnsan kapitalının inkişafı isə əsas hədəflər sırasındadır.

Daim seçkilərə böyük qələbə əzmi ilə qatılan Yeni Azərbaycan Partiyası xalqın inam və etimadını doğruldub. Yeni Azərbaycan Partiyası hər zaman tutduğu yola sadiq olub, irəli sürdüyü təşəbbüslərlə Azərbaycan dövlətinin gücünün artmasına xidmət edib.

Zəngin və şərəfli yol keçən YAP demokratik ənənələrə mühüm siyasi dəyər kimi yanaşır və onları möhkəmləndirməyi əsas məqsədlərindən biri hesab edir. Partiyanın Proqramında təsbit olunan prinsiplərdən biri demokratik ənənələrin inkişafıdır. YAP öz fəaliyyətində qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərini əsas götürür, siyasi plüralizmi təşviq edir, siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verir.

Yeni hədəflərə nail olaraq Azərbaycanın daha möhtəşəm uğurlara imza atmasını təmin etmək üçün seçiciləri parlament seçkilərində fəal olmağa, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıram.

# Azərbaycan üçün yeni perspektivlər...

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 66 saylı Saatlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əziz Ələkbərlinin YAP Saatlı rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Saatlı rayon təşkilatının sədri Elşən Əzizov qeyd edib ki, Yeni Azərbaycan Partiyası bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb: "Partiyanın seçki platformasında ötən 30 ilin möhtəşəm uğurları və qarşıdakı dövrün əsas hədəfləri əks olunub".

Deputatlığa namizəd Əziz Ələkbərli bildirib ki, Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoyub: "Budəfəki parlament seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsi ilə əlamətdardır. Prezident İlham Əliyevin müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb. Hazırda başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir".



Tədbirdə təşviqat qrupunun üzvləri Sədafər Hüseynov, Lətif Şimşəkov və digərləri çıxış edərək uğurların davamı naminə seçiciləri Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

Çıxış edən seçicilər də YAP-ın namizədini dəstəkləyəcəklərini vurğulayıblar.

# Zəfər partiyası yenə də möhtəşəm qələbə qazanacaq!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 38 saylı Gəncə birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Naqif Həmzəyevin YAP Gəncə şəhər təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yoluna nəzər salıb.

Deputatlığa namizəd Naqif Həmzəyev YAP-ın seçki platforması barədə məlumat verib. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası budəfəki parlament seçkilərinə də böyük uğurlarla gedir: "Yeni Azərbaycan Partiyası bu zamana qədər qatıldığı bütün seçkilərdə qələbə qazanıb. Əminliklə söyləmək olar ki, ümumxalq partiyası olan YAP bundan sonra da qarşısında duran vəzifələri uğurla yerinə yetirməklə ölkəmizin dayanıqlı və dinamik inkişafına müstəsna töhfələr verəcək".

Görüşdə tədbir iştirakçılarından Mehman Rzayev, Zabit Xəlilov, Mətanət Nəbizadə və digərləri çıxış edərək seçiciləri sentyabrın 1-də keçiriləcək parlament seçkilərində fəal olmağa və YAP-ın namizədini dəstəkləməyə çağırıblar. "Şübhəsiz ki, Zəfər partiyası yenə də möhtəşəm qələbə qazanacaq", - deyə vurğulanıb.

Seçicilər də öz növbəsində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.



# "Yeni tarixi mərhələdə hədəflərimizə addım-addım irəliləyirik"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 57 saylı Xaçmaz şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ağalar Vəliyevin Xaçmaz şəhərində seçicilərlə görüşü keçirilib.

YAP Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov qeyd edib ki, bu gün dünyada inkişafın Azərbaycan modelinin mövcudluğu qürurverici reallıqdır: "Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi zaman dövrün reallıqlarına əsasən bu əminliyi ifadə etmişdi ki, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı qüdrətli, zəngin ölkənin vətəndaşı olması ilə fəxr edəcək. Ulu Öndərin bu çağırışı çox qısa zamanda reallığa çevrildi. Azərbaycan yenidən quruldu, dövlətçiliyin əsasları yaradıldı".

Deputatlığa namizəd Ağalar Vəliyev YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, YAP xalqın inam və etimadını ən yüksək səviyyədə doğruldub: "Partiyamız siyasi arenada dövlətçilik mövqeyindən çıxış edərək hər zaman xalqın mənafeyini üstün tutub və qısa zamanda ümumxalq rəğbətini qazanıb. Söz ilə əməl birliyi, Heydər Əliyev yoluna sadiqlik Yeni Azərbaycan Partiyasının cəmiyyətdə nüfuzunun artmasında əhəmiyyətli rol oynayır".

Görüş iştirakçılarından Emil Tağıyev, Gündüz Hacıyev, Rübabə İsmayılova, Arif Əşrəfov, Sürəyyə Əmirova, Nazim Ağayev, İlham Rəhimli və digərləri seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar. "Yeni tarixi mərhələdə hədəflərimizə addım-addım irəliləyirik", - deyə vurğulanıb.



# "Partiyamızın hədəfləri xalqımızın milli məqsədlərini əks etdirir"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 36 saylı Xətai-Suraxanı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nərminə Hacıyevanın seçicilərlə görüşü keçirilib.



YAP Xətai rayon təşkilatının sədr müavini Vüqar Hüseynov yeni dövrə qədəm qoyan Azərbaycanın qarşısında dayanan hədəflərdən bəhs edib. Bildirib ki, bütün sahələr üzrə kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanın hərtərəfli inkişafını şərtləndirir. Qeyd olunub ki, seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılan Yeni Azərbaycan Partiyasının seçki platformasında əks olunan uğurlar və hədəflər gələcək inkişafın aydın mənzərəsini yaradır. "Partiyamızın hədəfləri xalqımızın milli məqsədlərini əks etdirir", - deyə vurğulanıb.

Deputatlığa namizəd Nərminə Hacıyeva Yeni Azərbaycan Partiyasının keçdiyi zəngin və şərəfli inkişaf yolundan bəhs edib. Bildirib ki, bu partiyaya xalqın sevgisi böyükdür: "Səmərəli fəaliyyətinin və yüksək siyasi nüfuzunun qanunauyğun nəticəsi kimi ümumxalq partiyasına çevrilən, 700 mindən çox üzvü olan YAP bu müddət ərzində ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanıb. Seçicilərimizin bu il fevralın 7-də keçirilmiş prezident seçkilərində qalib Liderimiz cənab İlham Əliyevə səs verdikləri kimi, 1 sentyabr - parlament seçkilərində də Prezidentimizin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəyinə, partiyamızın bu seçkilərdə də inamlı qələbə qazanacağına inanıram".



N.Hacıyeva seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Təşviqat qrupunun üzvü, şəhid polkovnik-leytenant Babək Ramaldanovun atası Meyvəddin Ramaldanov, seçicilərdən Yeganə Yusifova və Güllü Tomarlı vurğulayıblar ki, daim zirvələrə doğru inamla addımlayan qüdrətli Azərbaycanın vətəndaşı olmaq qürurvericidir.

Çıxış edənlər seçiciləri parlament seçkilərində yüksək fəallıq nümayiş etdirməyə və Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

# "Xalq-Lider birliyi bir daha öz sözünü deyəcək"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 31 saylı Suraxanı ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Etibar Quliyevin YAP Suraxanı rayon təşkilatının iqamətgahında seçicilərlə görüşü keçirilib.



YAP Suraxanı rayon təşkilatının sədr müavini Salman Əbdülov qeyd edib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin liderliyi ilə ölkəmiz ötən dövrdə böyük inkişaf yolu keçib: "Dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların rifahı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Prezident İlham Əliyevin uzaqgörən, prinsipial və milli maraqlara əsaslanan siyasəti nəticəsində dövlətimiz və xalqımız qarşıya qoyduğu ən müqəddəs vəzifənin yerinə yetirilməsinə, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsinə nail olub".

Deputatlığa namizəd Etibar Quliyev YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, Azərbaycanın uğurlu inkişafı, zəfərləri göz önündədir: "Prezident İlham Əliyevin daim bəyan etdiyi kimi, vətəndaş amili dövlət siyasətinin əsasıdır. Hər bir ölkənin inkişafında əsas amil olan iqtisadi yüksəliş yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında özünü təsdiqləyir. Möhtəşəm nailiyyətlərimiz, vətəndaş məmnunluğunun artırılmasına yönələn addımlar və onların uğurlu nəticələri Yeni Azərbaycan Partiyasının növbədənkənar parlament seçkilərinə böyük qələbə əzmi ilə qatılmasına stimul verib. Əminik ki, sentyabrın 1-də keçiriləcək seçkilər xalqın Yeni Azərbaycan Partiyasına birmənalı dəstəyinin növbəti ifadəsi olacaq. Xalqımız Heydər Əliyev yoluna sədaqətini, Prezident İlham Əliyevin zəfərlərə yol açan uğurlu və məqsədyönlü siyasətinə inam və etimadını bir daha nümayiş etdirəcək. Xalq-Lider birliyi bir daha öz sözünü deyəcək".



Təşviqat qrupunun üzvləri çıxışlarında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə, Azərbaycanın işıqlı gələcəyi naminə YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər isə YAP-ın namizədini dəstəkləyəcəklərini vurğulayıblar.

# Yeni Azərbaycan hər birimizin qürur mənbəyidir

**37 saylı Qaradağ seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Aydın Hüseynov yap.org.az saytına müsahibə verib.**



**- Aydın müəllim, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Yeni Azərbaycan Partiyası bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb. Yeni dövrün reallıqları nədən ibarətdir?**

- Möhkəm təməl uğurlarımızın davamlılığının əsasıdır. Azərbaycanın bu gününü dünəni ilə müqayisə etdikdə böyük inkişaf və tərəqqinin şahidi oluruq. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə başlanan inkişaf yolu möhtəşəm zəfərlərə gətirib çıxardı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində qazandığımız qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını təmin etdi.

Bu gün iftixarla qeyd edirik ki, Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoyub.

Artıq ötən müddətdə qarşıya qoyulan vəzifələr uğurla icra edilib, hədəflərə yüksək səviyyədə nail olunub. Yeni dövr isə yeni çağırışları ilə diqqətdədir.

Bu seçkilər həm Azərbaycanın demokratik inkişaf tarixinə növbəti qələbə səhifəsini yazacaq, həm də dünyanın diqqətini ölkəmizə yönəltməklə yeni reallıqların təqdimatında mühüm rol oynayacaq.

Dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" devizi ilə qatılaraq qarşıdakı dövrün hədəflərini açıqlayıb. Hər sahədə uğurlarınız qürurvericidir. Azərbaycanın sabitlik diyarı, təhlükəsiz ölkə kimi tanınması həm iqtisadi əlaqələrin genişlənməsində, həm də ölkəmizin yeni dostlar və tərəfdaşlar qazanmasında əhəmiyyətli rol oynayır. Bu fakt inkaredilməzdir ki, müstəqilliyimizin bərpasının ilk illərində ölkədə ictimai-siyasi durumun ağırlığı, xaosun, anarxiyanın, iqtisadi böhranın baş alıb getməsi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin, şirkətlərin tərəddüdlərinə səbəb olmuşdu. Onlar yatıracaqları investisiyaların təhlükəsizliyinə əmin deyildilər. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin həyatında yeni bir dövrün başlanması oldu. Hər bir dövlətin inkişafında və tərəqqisində siyasi sabitliyin əsas amil olduğunu önə çəkən Ümummilli Lider Heydər Əliyev Azərbaycanı o illərin xaosundan, anarxiyasından, özbaşınalıqlarından xilas etdi.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi ilə qəbul edildi. Bununla da Azərbaycan demokratik, hüquqi, sivil dəyərlərə malik ölkə olaraq milli kimliyini beynəlxalq aləmə təqdim etdi.

Ümummilli Lider "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisini irəli sürərək iqtisadiyyatımızın inkişafında neft amilinə yüksək önəm verdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Neft sənayesini iqtisadiyyatın onurğa sütunu kimi dəyərləndirən Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu günümüz və gələcəyimiz üçün hesablanmış addımlar sırasındadır. Azərbaycanın neft-qaz sənayesinə qoyulan sərmayə, yaradılmış əlverişli investisiya iqlimi, güclü siyasi iradə və qurulan möhkəm beynəlxalq əməkdaşlıq bugünkü reallıqları mümkün etdi. Onu da qeyd edim ki, Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondu neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycanın əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edir. Qurumun yaradılması fəlsəfəsinin əsas qayəsini neft sərvətlərinin nəsillər arasında ədalətli bölünməsinin təmin edilməsi təşkil edir. Hazırda Dövlət Neft Fondunun vəsaitləri hesabına biri-birindən əhəmiyyətli sosial-iqtisadi layihələr həyata keçirilir ki, bu da öz növbəsində ölkəmizin hərtərəfli inkişafına xidmət edir.

1993-2003-cü illər tariximizə sabitlik, inkişaf illəri, Azərbaycanın müstəqil ölkə kimi yaşamasını təmin edən bir dövr kimi yazılıb. Son 20 ildən artıq dövrdə Prezident İlham Əliyev siyasi kursunu o illərdə müəyyən edilmiş strategiya çərçivəsində davam etdirərək Azərbaycanı inkişaf etdirir, tariximizə zəngin uğur, zəfər səhifələrinin yazılmasını təmin edir. Yeni Azərbaycan Partiyasının seçki platformasında qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə, milli və regional təhlükəsizliyin təmin olunmasına hədəflənmiş müstəqil və uzaqgörən siyasəti sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb. Son 20 ildə keçilən yolun təqdimatı kimi dəyərləndirilən 7 fevral - prezident seçkilərində inamlı qələbə qazanan cənab İlham Əliyev andiçmə mərasimində bildirdi ki, bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır.

Sosial sahədə görülmüş işlər də göz qabağındadır. Sosial siyasət sahəsində həyata keçirilən tədbirlər vətəndaşların layiqli həyat şəraitinin təmin olunması və sosial rifahının yaxşılaşmasında öz əksini tapıb. Son 30 ildə real ifadədə əhalinin gəlirləri 5,6 dəfə, orta aylıq nominal əməkhaqqı 4,7 dəfə, minimum aylıq əməkhaqqı 4,2 dəfə artmış, işsizliyin səviyyəsi 1999-cu ildəki 12,7 faizdən 5,5 faizədək, yoxsulluq səviyyəsi 2001-ci ildəki 49 faizdən 5,2 faizədək enmişdir. Təkcə son 5 ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmuş, minimum pensiya məbləği 2,5 dəfə, orta pensiya məbləği 2 dəfə, sosial müavinət və təqaüd ödənişləri 5 dəfəyə yaxın artmışdır. Bugünədək şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14,9 min mənzil və fərdi ev, 7700 avtomobil verilmişdir. Partiyamızın seçki platformasında qeyd edildiyi kimi, bu gün Azərbaycan dövlətinin sosial siyasət sahəsində başlıca məqsədi insana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması və sosial ədalət prinsipinin daim qorunmasıdır. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikri həyata keçirilən sosialyönümlü siyasətin əsasını təşkil edir.

İqtisadi tərəqqinin güclü sosial siyasətlə tamamlanması Azərbaycanın sosial dövlət kimi imicini möhkəmləndirir.

**- Yeni Azərbaycan Partiyasının seçki platformasında qarşıda duran əsas hədəflər əksini tapıb. Bu hədəflər ölkəmiz üçün hansı perspektivləri yaradır?**

- Azərbaycan hər bir hədəfə addım-addım, ardıcıllıqla nail olur. Günümüzün hədəflərini 30 il bundan öncənin milli məqsədləri ilə müqayisə etdikdə böyük inkişaf və tərəqqinin şahidi oluruq.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdanda əsas çağırış yeni Azərbaycanın qurulması, dövlət müstəqilliyinin daimiliyi və dönməzliyinin təmin edilməsi idi. 1995-ci ildə milli Konstitusiyanın qəbulundan sonra keçirilən seçkilərə nəzər salsaq, dövrün tələbinə uyğun olaraq Yeni Azərbaycan Partiyasının çağırışlarının mahiyyətinin dəyişdiyini görmək olar. O zaman "Yeni müstəqil Azərbaycan uğrunda!" deyən YAP bu gün "Yeni dövrə Yeni Azərbaycanla!", - deyə çağırış edir.

Düşünülmüş və məqsədyönlü siyasət nəticəsində yeni inkişaf yoluna qədəm qoyan Azərbaycan illər keçdikcə daha möhtəşəm uğurları ilə dünyanı heyrətləndirir. Bu gün dünyaya səs salan qalib, bütövləşən Azərbaycanın uğurları, qeyd etdiyimiz kimi, Heydər Əliyev siyasətinin təntənəsidir. Son 20 ildən artıq dövrdə Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev xalqımıza tarixi Zəfərin sevincini yaşatdı. 44 gündə 30 ilin işğalına son qoyulması, tarixi ədalətin bərpası Azərbaycanın gücünün, qüdrətinin, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən haqlı siyasətinin uğurlu nəticələrinin nümayişi oldu. Şanlı Qələbəmizdən üç il sonra, ötən ilin sentyabr ayında rəşadətli ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin bərpa olunması müasir dövlətçilik tariximizin ən önəmli və şərəfli səhifəsidir.

- Yeni Azərbaycan Partiyasının seçki platformasında bütün sahələrdə qazanılan uğurlarla yanaşı, əsas hədəflər də öz əksini tapıb. Başlıca hədəflərdən biri işğaldan azad edilmiş ərazilərimizin bərpası, soydaşlarımızın doğma yurd-yuvalarında layiqli məskunlaşmasının təmin edilməsidir. Bu gün qürur və iftixarla qeyd edirik ki, Heydər Əliyev yolunun Müzəffər davamçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər nəticəsində soydaşlarımızın arzuları gerçəkliyə çevrilir. Böyük Qayıdış prosesi uğurla reallaşdırılır. Bu proses çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifələrindən birinə çevrilməklə daha güclü yeni Azərbaycanın gələcəyinə töhfə verəcək.

**- Aydın müəllim, seçicilərlə görüşləriniz sizdə hansı qənaəti yaratdı?**

- Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan, ölkənin ictimai-siyasi həyatında aparıcı rola malik Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi kimi keçirdiyim görüşlər xoş ovqat və müsbət təəssürat yaratdı. Dövlətimizin siyasətinə, Yeni Azərbaycan Partiyasına inam, etimad seçicilərin hər bir fikrində öz əksini tapdı. Seçicilər Azərbaycanın uğurlarından qürurlandıqlarını bildirdilər.

Xalqın sevgisini qazanan Yeni Azərbaycan Partiyası gələcəyə böyük inamla addımlayır. Yeni dövrdə növbəti hədəfləri reallaşdıraraq daha möhtəşəm nailiyyətlər qazanmaq üçün seçiciləri parlament seçkilərində fəal olmağa, Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıram. Müasir müstəqil, qalib, bütövləşən yeni Azərbaycan hər birimizin qürur mənbəyidir!

# Xalqa xidmət missiyası...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 1 saylı Şərur-Sədərək seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ziyafət Əsgərovun Şərur rayonunun Yengicə, Muğanlı, Qorçulu, Şəhriyar, Cəlilkənd, Zeyvə, Düdəngə və Mahmudkənd kəndlərinin seçiciləri ilə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Şərur rayon təşkilatının sədri Əmir Babayev qeyd edib ki, YAP-ın uğurlu fəaliyyəti Azərbaycanda sabitlik, əmin-amanlıq, tərəqqi, dövlətimizin maraqlarının qətiyyətlə qorunması, ölkəmizin müasirləşməsi, yeniləşməsi baxımından böyük önəm daşıyır: "Bu gün həm Azərbaycan, həm də Yeni Azərbaycan Partiyası yaradılan möhkəm təməl üzərində uğurla inkişaf edir, zəfərdən-zəfərə inamla addımlayır. Azərbaycanın hər bir uğurunda öz payı olan Yeni Azərbaycan Partiyası hər birimizdə böyük qürur hissi yaradan tarixi Zəfərimizin yaratdığı reallıqların qarşıya qoyduğu vəzifələri müvəffəqiyyətlə həyata keçirir, xalqa xidmət missiyası yerinə yetirir".

Deputatlığa namizəd Ziyafət Əsgərov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ölkəmizə misilsiz tarixi nailiyyətlər qazandırıb: "Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri sürətlə aparılır. Artıq Azərbaycan Ulu Öndərin görmək istədiyi güclü dövlətə çevrilib, regionda və dünyada söz sahibidir".

Tədbir iştirakçılarından Gövhər İsmayılova, Əli Qasımov, Südabə Dadaşova və digərləri çıxış edərək yarandığı vaxtdan iştirak etdiyi bütün seçkilərdə qələbələr qazanan YAP-ın bu seçkilərdə də xalqın dəstəyi ilə inamlı qalibiyyət əldə edəcəyini söyləyiblər.

Qeyd edək ki, deputatlığa namizəd Ziyafət Əsgərov şəhid baş leytenant Elçin İbrahimov, şəhid baş leytenant Əli Əliyev, şəhid Ruzi İbrahimov, şəhid gizir Əmrah İsmayılovun ailələrini ziyarət edib.



# "Növbəti zəfərlərə səs verəcəyik!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 40 saylı Gəncə üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Musa Quliyevin YAP Gəncə şəhər təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov qeyd edib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən "güclü dövlət, yüksək rifah" prinsipini əsas götürüb: "Azərbaycanın bu günü və gələcəyi üçün görülən işlərdə partiyamızın öz müstəsna rolu vardır. Ümummilli Liderin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasına xalqın sevgisi və inamı sonsuzdur".

Deputatlığa namizəd Musa Quliyev YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa olunması yeni dövrün əsasını qoydu: "Bu, daha böyük qələbələrə - soydaşlarımızın öz ata-baba yurdlarına qayıtmasına, Qarabağ və Şərqi Zəngəzurun bərpasına, yenidən qurulmasına, məskunlaşmanın sürətləndirilməsinə, viran edilən şəhər, kəndlərimizin cənnətə çevrilməsinə, dövlətimizin nüfuzunun beynəlxalq aləmdə daha da artmasına, Türk dünyasının birliyinə və digər nailiyyətlərə yol açan bir dövrdür. Yeni Azərbaycan Partiyasının bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə getməsi qürurverici olmaqla tarixi qələbələrimizdən qaynaqlanır".



Tədbir iştirakçılarından Hüseyn Budaqov, Flora Rüstəmova, Yəhya Namazov, Sevinc İsgəndərova, Orucəli Rzayev və digərləri çıxışlarında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər parlament seçkilərində YAP-ın namizədini dəstəkləyəcəklərini bildiriblər. "Yeni zəfərlərə səs verəcəyik!", - deyə vurğulanıb.

Deputatlığa namizəd Musa Quliyev şəhidlər Sərxan Muxtarov, Taleh Mustafazadə və Nurlan Bağırovun ailələrini də ziyarət ediblər.

# "Tərəqqi yolunda daim irəliləyəcəyik!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 96 saylı Goranboy-Naftalan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Bədəl Bədəlovun Goranboy rayonu, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd qəsəbələri, Börü, Buzluq, Todan, Mənəşli, Erkəc, Rus Borisi kənd seçiciləri ilə görüşləri keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Goranboy rayon təşkilatının sədri Samir Qocayev bildirib ki, Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub: "Bu gün tarixi Zəfərimizin yaratdığı reallıqlardan, Azərbaycanın regionda və beynəlxalq müstəvidə möhkəmlənən mövqeyindən, yeni dostlar, tərəfdaşlar və yüksək nüfuz qazanmasından, böyük ailə kimi dəyərləndirdiyi Türk dünyasının birliyinə verdiyi töhfələrdən, Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsindən və digər möhtəşəm uğurlarımızdan qürurla bəhs edirik".



Deputatlığa namizəd Bədəl Bədəlov YAP-ın seçki platforması barədə məlumat verib. O, partiya sıralarının gündən-günə genişlənməsinin, sosial bazasının daha da möhkəmlənməsinin Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinə xalqın birmənalı dəstəyinin bariz nümunəsi olduğunu deyib.

"Qarşıda duran bütün hədəflər yüksək səviyyədə yerinə yetirilir, gələcəyə inamla addımlayırıq. Yeni reallıqlar rifah, inkişaf və qələbələr vəd edir. Tərəqqi yolunda daim irəliləyəcəyik!", - deyə B.Bədəlov vurğulayıb.

Təşviqat qrupunun üzvləri - şəhid mayor Əlövsət Məmmədovun həyat yoldaşı Rahinə Məmmədova, Əzra Həşimova, Rəddin Məmmədov, İsgəndər Səklikov, Yeganə Məmmədova və Ürfət Həsənov çıxış edərək YAP-ın parlament seçkilərində xalqın dəstəyi ilə inamlı qələbə qazanacağına əminliklərini ifadə edib, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

# "Bu seçkilər ölkəmiz üçün yeni müvəffəqiyyətlər vəd edir"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 115 saylı Şəki kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Niymət Yusibovun seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması ilə respublikamızın ictimai-siyasi həyatında yeni tarixi mərhələnin əsası qoyulub. Seçkilərin önəmindən bəhs edən D.Mikayılov "Bu seçkilər ölkəmiz üçün yeni müvəffəqiyyətlər vəd edir və Azərbaycanın demokratik inkişaf tarixinə yeni uğur səhifəsini yazacaq", - deyə bildirib.



Deputatlığa namizəd Niymət Yusibov ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, cəmiyyətin avanqard qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında ətraflı məlumat verib. O vurğulayıb ki, YAP-ın uğurlu fəaliyyəti Azərbaycanın hərtərəfli inkişafına yol açır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin müasir çağırışlar fonunda Azərbaycanın davamlı inkişafını təmin etdiyi qeyd olunub.

Tədbirdə təşviqat qrupunun üzvü Mehman Mikayılov və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

# Parlament seçkiləri ilə bağlı ilkin nəticələrin açıqlanacağı vaxt məlum oldu



"Növbədənkənar parlament seçkiləri ilə bağlı ilkin nəticələrin operativ elan olunmasını təmin edəcəyik".

"Seçki 2024"Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov qurumun dünən keçirilən iclasında deyib.

MSK sədri qeyd edib ki, indiyədək bütün seçkilərdə ilkin nəticələrin operativ elan olunması təmin edilib.

"Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində də bu operativlik qorunacaq. İlkin nəticələrin sentyabrın 1-i gecə çatdırılmasını təmin edəcəyik. İki gün ərzində isə bizə dairələrdən protokollar veriləcək. Bu isə yekun nəticələr hesab olunacaq", - deyə Məzahir Pənahov əlavə edib.

# Parlament seçkilərində ilk dəfə səs verənlərə xüsusi kart veriləcək



Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərdə ilk dəfə səs verən seçicilər üçün xüsusi seçici kartları hazırlanıb.

"Seçki 2024"Müstəqil Media Mərkəzi xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) dünən keçirilən iclasında qurumun sədr müavini Rövzət Qasımov məlumat verib.

O bildirib ki, ilk dəfə səs verən seçicilərdən 374-ü sentyabrın 1-də doğum gününü qeyd edəcək: "Onlara da xüsusi təbrik kartları veriləcək".

MSK sədri Məzahir Pənahov həmin kartlara MSK-nın xüsusi möhürünün vurulması təklifini irəli sürüb.

"Bu, doğum günü kartlarının MSK-dan verildiyini xüsusiləşdirə bilər", - deyə o, əlavə edib.

# Rövzət Qasımov: Gözdən əlillər üçün trafaretlərin hazırlanması prosesi yekunlaşıb



"Milli Məclisə seçkilərlə bağlı maarifləndirmə layihələrinə artıq yekun vurulub".

"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov qurumun dünən keçirilən növbəti iclasında deyib.

O bildirib ki, MSK tərəfindən seçkilərlə əlaqədar başa vurulan digər layihə ilk seçicilərlə bağlı olub:

MSK sədrinin müavini əlavə edib ki, gözdən əlillər üçün trafaretlərin hazırlanması prosesinə də yekun vurulub.

# ETX xəbərdarlıq edir...

## Fişinq hücumlardan necə qorunmaq olar?

Elektron Təhlükəsizlik Xidməti (ETX) vətəndaşlara ölkəmizdə fəaliyyət göstərən müxtəlif bankların adından fişinq cəhdlərinin sayının artması barədə növbəti xəbərdarlıq edib. Məlumatda qeyd edilir ki, kiberdələduzlar e-poçt vasitəsilə bank ödənişlərinin tamamlanması ilə bağlı saxta məlumatlar göndərərək istifadəçiləri zərərli qoşmalara yönləndirirlər. Qoşmanın tərkibində fərdi məlumatları ələ keçirmək üçün zərərli "keylogger" proqramı yerləşdirilib. Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara bu cür hallara qarşı diqqətli olmağı və şübhəli qoşmalara daxil olmamağı, yükləməməyi, həmçinin hər hansı qurumun adından bu tip məlumatlarla qarşılaşdıqda, ilk növbədə həmin qurumla əlaqə saxlayaraq dəqiqləşdirməyi tövsiyə edir.

Fişinqlə qətiyyətli mübarizə tədbirləri aparan Daxili İşlər Nazirliyinin (DİN) Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin ötən gün keçirdiyi genişmiqyaslı əməliyyat zamanı aşkar edilən hallar da fişinqin hədsiz geniş yayılmasına dəlalət edir. Belə ki, əməliyyat zamanı elektron sübutlar əsasında bank və alış-veriş platformalarına oxşar saytlar yaradaraq fişinq yolu ilə vətəndaşların kart məlumatlarını ələ keçirən kiberşəbəkənin 400-ə yaxın vətəndaşın kartından pul vəsaitləri oğurlayaraq onlara ümumilikdə 500 min manata yaxın maddi ziyan vurduqları müəyyən edilib. Bu, həmin şəbəkənin hələ bir hissəsidir, gizli fəaliyyətini davam etdirən bu cinayətkar qrup üzvlərinin fişinqin müxtəlif yolları ilə əməllərini davam etdirməsinin qarşısını almaq həqiqətən də çətindir.

### Fişinq nədir?

Qeyd edək ki, fişinq internet fırıldaqçılığının ən geniş yayılmış növlərindən biridir, məqsədi gizli istifadəçi məlumatlarının - istifadəçi adı, şifrə, şəxsi hesab məlumatlarını ələ keçirilməsidir. Belə ki, həyata keçirilən kiberhücumlarda bank əməkdaşlarının adından vətəndaşların mobil nömrələrinə zənglər edilərək, onların adına hər hansı köçürmənin həyata keçirildiyi bildirilir və təsdiqləmə üçün kart hesab nömrəsi, şifrə, təsdiqləmə kodu və sair fərdi məlumatların təqdim edilməsi tələb olunur. Digər bir kiberhücumda bank əməkdaşlarının adından saxta sosial şəbəkə hesabları yaradılaraq müəyyən bank əməliyyatlarının həyata keçirilməsi üçün kart hesab məlumatlarının, təsdiqləmə kodlarının təqdim edilməsi tələb edilir.

Məqsəd sosial mühəndislik texnikalarından istifadə edərək istifadəçiləri "tələyə salmaqla" asan yolla maddi vəsait əldə etməkdir.

Fişinq kiberhiyləgərlik növlərindən biri kimi 1990-cı illərdən həyata keçirilməkdədir, fişinq adətən çox vaxt tanınmış şirkətlər və ya təşkilatların adından kütləvi poçt göndərmə üsulu ilə aparılır. Bu cür məktublar saxta və təhlükəli saytlara keçidləri ehtiva edir. Əsas məqsədi isə istifadəçini məktubun vacib olduğunda əmin etmək, şəxsi məlumatlarını oğurlamaq, xüsusilə, bank kartlarının nömrələri, CVV/CVC və PİN-kodlarını ələ keçirməkdir. Fırıldaqçılar kredit təşkilatlarının rəsmi internet səhifələrinə oxşar səhifə yaradaraq, müştərilərin daxil etdiyi məlumatları özünə götürürlər. Digər bir variant - elektron poçt və ya SMM vasitəsilə saxta mesajların göndərilməsidir.

Ümumilikdə, fişinq növləri çoxdur və əsas ortaq xüsusiyyəti etibar qazanmış şirkətlərin və ya şəxslərin adından sui-istifadəyə əsaslanmasıdır. Əsas məqsəd isə müştərilərin məxfi məlumatlarının əldə edilməsidir. Bu hallardan biri kimi müştərilərə ünvanlanan məktublarda ona aid vacib məlumatların, o cümlədən istifadəçi adı və şifrə müxtəlif aldadıcı vasitələrlə ələ keçirilir. İstifadəçiyə hansısa bankdan və ya kredit təşkilatından göndərilmiş məktubların oxşarı hazırlanaraq ona ünvanlanır, bu cür məktublar daha çox spam xarakterli olur. İstifadəçilərin əksəriyyəti həmin məktubları bankların ənənəvi e-məktublarından fərqləndirə bilmədiyindən açaraq məktubda qeyd edilən keçidin üzərinə klikləyir və həqiqi saytdan fərqlənməyən ziyankar sayta daxil olur.




Fişinqin digər bir növü müxtəlif nazirlik və komitə, təşkilat, biznes assosiasiyaları, tanınmış nüfuzlu holdinqlərin adından da göndərilən məktublardır. Belə ki, vətəndaşlara elektron məktub vasitəsilə iş elanları və vakansiyalar göndərilir, onlardan CV-nin göndərilməsi istənilir. CV-də onun məlumatları fişinq şirkətin HR menecerinə göndərilir ki, əksər hallarda CV ilə yanaşı, ZIP fayl və ya Microsoft Office sənədləri də tələb edilir. Nəticədə bu üsulla da vətəndaşların tora salınması baş verir.

Beynəlxalq e-təhlükəsizlik seqmentləri üzrə aparılmış araşdırmalara görə, elektron resurslarda məlumat itkisi hallarının 90 faizi məhz fişinq ilə əlaqədardır, hər ay təxminən 1,5 milyon ədəd fişinq saytı yaradılır. Son bir ildə isə fişinq cəhdlərinin sayı 70 faizdən də çox artıb.

### Aldanmamaq üçün...

Fişinqin qarşısını almaq və onunla mübarizə aparmağın bir neçə üsulu var, onlardan ən mühümü və asanı elektron məktub və ya mesajlar ilə göndərilən keçidlərə kliklərdən uzaq olmaqdır. Fişinq məqsədilə göndərilən məktubda şəxsi məlumatların daxil edilməsi tələb edilsə, bunu diqqətlə araşdırmaq, həmin məktubun həqiqətən də bank və ya kredit təşkilatı tərəfindən göndərilib-göndərilmədiyini aydınlaşdırmaq lazımdır. Unutmayın ki, banklar müştəri məlumatları üçün elektron poçt və ya SMM vasitəsilə heç vaxt sorğu göndərmirlər. Ona görə də bank və kredit təşkilatının yalnız rəsmi saytından istifadə etmək, məktubun həqiqiliyi və dürüstlüyünü müəyyənləşdirmək üçün şirkətin və ya təşkilatın rəsmi saytını axtarış sistemi vasitəsilə tapıb, həmin seqmentdən daxil olmaq məsləhətdir. Bu halda kiberdələduzların fırıldağı da müəyyənləşmiş olur.

Bütün bunlarla yanaşı, internetdə şəxsi məlumatların paylaşılmamamsı da məqsədəuyğundur. Hər hansı bir saytda məlumatlarınızı daxil etmədən öncə saytın etibarlı olduğundan əmin olmaq lazımdır. Xüsusilə də domenlərə diqqət etmək lazımdır, təhlükəsiz saytlar həmişə "https" ilə başlanır.

Əksər ölkələrdə fişinq hücumlarından qorunmaq üçün kompüter və ya smartfonlarda anti-fişinq paneli quraşdırılır ki, bunun Azərbaycanda da tətbiqi asandır. Anti-fişinq panelləri bir çox brauzerlərdə quraşdırıla bilər. Bu cür proqram demək olar ki, bütün saytlarda sürətli yoxlama aparır və onları tanınmış fişinq saytlarının siyahısı ilə müqayisə edir. Zərərli bir sayta rast gəlindiyi halda proqram müştəriyə xəbərdarlıq edir.

Fişinqə məruz qalmamaq, daim təhlükəsiz olmaq üçün istifadəçilərin elektron resurslardakı hesabların, daim nəzarətdə saxlaması və sosial media hesablarını mütəmadi yoxlaması da mühüm amillərdən biridir. Hətta müəyyən bir müddətdən sonra hesab şifrələri və parolların da yenilənməsi məqsədəuyğun sayılır. Nəhayət, bank və maliyyə, kredit təşkilatları ilə təmasları olan, davamlı müxtəlif əməliyyatlar aparan müştərilərin, eləcə də kredit kartı olan vətəndaşların fişinq fırıldaqçılığının qarşısını almaq üçün maliyyə hesabları üzrə aylıq hesabatlarını bankdan tələb edərək hər birini diqqətlə yoxlamaları da vacib şərtdir. Bunu ayda bir dəfə monitorinq etmək çətin deyil və bankların bu prosesle bağlı hansısa bir imtinası mümkün deyil.

Bütün bunlara rəğmən, vətəndaşlar fişinq zənglərə qarşı maksimum diqqətli olmalı, ekranda hansı nömrənin əks olunmasından asılı olmayaraq heç bir halda qarşı tərəfə bank məlumatlarını və digər fərdi məlumatlarını təqdim etməməlidirlər. Bu kimi zənglər və ya mesajlar aldıqda, ilk öncə başqa vasitələrlə həmin bank və ya müəssisə ilə əlaqə saxlayaraq məlumatın düzgünlüyünü yoxlamalıdırlar. Xüsusilə, bank kartlarının şəklini çəkməklə qarşı tərəfə ötürmək, telefona gələn təsdiqləmə kodlarını (OTP) digər şəxslərlə paylaşmaq qətiyyən yolverilməzdir.

***ELBRUS***

# Kor atın axsaq nalbəndi...

## Okampo pul müqabilində başladığı "separatçıları müdafiə" kampaniyasına özü də inanmır

Qərbdəki Azərbaycanafob şəbəkə ölkəmizə qarşı növbəti çirkin kampaniyaya start verib. Bu günlərdə AŞPA-nın sədri, Yunanıstan parlamentinin üzvü Teodoros Rousopoulos, Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə mətbuat katibi Peter Stanon, Almaniya parlamentinin üzvü Frank Şvabe respublikamızın müsbət reallıqları ilə bir araya sığmayan absurd və qərəzli iddiaları ilə gündəmə gəliblər. Bədnam xorda həmçinin Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun cır, zəhlətökən səsi də çox ucadan eşidilir.

Müşahidə edilən odur ki, sabiq prokuror yenə öz ampluasındadır. O, hüquq müdafiəçisi kimi şərəfli adın məsuliyyətini unudaraq xaricdəki erməni lobbisinin yedəyində sürünməyi özünə şərəf bilir. Əlbəttə ki, aldığı paralar müqabilində. Onun barəsində bu gün "muzdlu hüquqşünas" ifadəsini işlətmək daha doğru olardı. O, xaricdəki erməni lobbisindən aldığı sifarişlər əsasında beynəlxalq hüququ heç bir vicdan əzabı çəkmədən ən eybəcər formada şərh edə, qanundankənar istənilən addımı ata bilər. Budur, özünü Qarabağdan könüllü çıxan erməni sakinlərin müdafiəçisi kimi qələmə verən bu şəxs növbəti dəfə Ermənistan və keçmiş separatçı rejimin vətəndaş cəmiyyətinin bir sıra nümayəndələri ilə görüşüb. Okampo onları mübarizəyə səsləyib və geridönüş üçün addımlar atmağa çağırıb.

### Qaranlıq keçmişi olan cinayətkar "hüquq müdafiəçisi"

Okampo Qərb dairələrində adı müxtəlif cinayətlərdən keçən birisi kimi tanınır. Onun cinayət əməlləri ilə çox "zəngin" olan qaranlıq keçmişi var. Həmin faktlardan bəzilərinə diqqət çəkmək yerinə düşər.

Beləliklə, Almaniyanın nüfuzlu "Spiegel" nəşrinin 2017-ci ildə dərc etdiyi qalmaqallı məqalədə Okamponun hələ prokuror işlədiyi dövrdə vergi cənnətləri sayılan Panama və Virciniya adalarında müxtəlif şirkətlərə idarəçiliyi həyata keçirdiyi, ancaq bunu bəyan etmədiyi barədə məqamlar yer alıb. Eyni zamanda, o, bir sıra məxfi sənədləri və məlumatları məşhurlarla, milyarderlərlə paylaşıb. Bu siyahıda aktyorlar Ancelina Coli, Corc Kluni, EBAY-ın həmtəsisçisinin həyat yoldaşı Pierre Omidyarın adları keçir.

2012-ci ilin 15 avqust tarixində - BCM-in prokuroru vəzifəsindən ayrıldıqdan cəmi 2 ay 10 gün sonra Okamponun Hollandiyanın ABN Amro bankındakı hesabına 50 min dollar pul köçürülüb. Pul İsveçrədəki hesabdan daxil olmuşdu və Panamada yerləşən "Tain Bay" korporasiyası tərəfindən Avropaya göndərilmişdi. Pul transferləri getdikcə artmağa başladı. Növbəti aylarda 140 min dollar Hollandiyadakı hesaba bir neçə tranşla yenə də Panamadan daxil oldu. Bəlkə də, Okampo hər şeyi inkar edəcəkdi, əgər jurnalist araşdırmaları onunla bağlı təkzibolunmaz faktları üzə çıxarmasaydı. Əldə edilən məlumatlardan və bəzi sənədlərin jurnalistlər tərəfindən araşdırılmasından sonra Panamadakı "Tain Bay" korporasiyasının arxasında həqiqətən də Okamponun və həyat yoldaşının olduğu təsdiqləndi. Moreno prokuror kimi fəaliyyətini başa vurduqdan sonra aktivlərini təmkinli şəkildə dəyişdirmək istəyirdi. Eyni zamanda, "Tain Bay" Okamponun yeganə ofşor şirkəti deyil. Sənədlər sübut edir ki, keçmiş prokuror həm də Britaniya Virciniya adalarında (BVI) da bir şirkətin sahibidir. Belizdəki "Lucia Enterprises" şirkəti də onun həyat yoldaşına məxsusdur. Okampo ailəsinin nəzarətində olan daha bir şirkət - "Transparent Markets" Uruqvayda qeydiyyatdan keçib.

Son olaraq haqqında bəhs olunan dələduz hüquqşünas bu yaxınlarda yenidən korrupsiya və zorla pul tələbetmə ittihamı ilə üzləşib. Okampo korrupsiya və vergi qalmaqalları ilə yanaşı, həmçinin cinsi təqibdə də ittiham olunub.

### Özünü pis vəziyyətə salan erməni yandaşı

Rüşvətxor və korrupsioner sabiq prokuror məlum görüş zamanı Azərbaycanı növbəti dəfə ittiham etməkdən və qərəzli fikirlər səsləndirməkdən çəkinməyib. O, əli pulla oynayan lobbi təmsilçilərinin xoşuna gəlməkdən ötrü iddia edib ki, məhz erməni sakinlər Qarabağda torpaq sahibləridirlər. Hər şey də onların mübarizəyə necə hazırlaşmaqlarından asılı olacaq. Ardınca sabiq prokuror BMT-nin xalqların hüquqlarının qorunmasını nəzərdə tutan Konvensiyanı yada salıb. Lakin görüşdə iştirak edən ermənilər ona xatırladıblar ki, bir çox ölkələr qondarma erməni soyqırımının tanınması ilə bağlı qərar qəbul etsələr də, bunun praktiki nəticəsi olmayıb. Beləliklə, erməni yandaşı Okampo özünü pis vəziyyətə salıb və görüş iştirakçılarına təskinlik verməkdə aciz qalıb. Burada deyiblər ki, kor atın axsaq nalbəndi.

Okamponun "erməni işi" ilə bağlı başladığı "mübarizənin" hansısa bir nəticə verməyəcəyinə özünün də inanmadığını təsdiqləyən daha bir məqam diqqət çəkir. Sabiq prokuror bəhs olunan görüşdə hazırda Bakıda dəmir barmaqlıqlar arxasında barələrində oxunacaq məhkəmə hökmünü gözləyən Qarabağdakı keçmiş separatçı rejimin "rəhbərlərinin" azadlığa buraxılması tələbini dilə gətirməyib. Halbuki o bundan əvvəl həmin şəxslərə azadlıq istəyirdi. Xatırladaq ki, eks-prokuror dünya ermənilərinə ünvanladığı açıq məktubunda kütləvi informasiya vasitələrini Azərbaycanda cəza çəkən separatçı erməni terrorçularını azad etmək üçün kampaniyaya başlamağa çağırış etmişdi. Okampo hətta onların COP29-a qədər azad olunmasının zəruriliyini dilə gətirmişdi. Lakin Okamponun özünü erməni canıyananı kimi göstərməsi heç nəyə yaramadı və heç nəyi dəyişmədi - Ermənistan rəhbərliyi və nüfuzlu beynəlxalq təşkilatlar bu təşəbbüsə dəstək vermədilər. Görünür, Okampo məhz uğursuzluq sindromuna görə məlum görüşdə "separatçılara azadlıq" məsələsinin üstündən sükutla keçmək məcburiyyətində qalıb.



### COP29 ərəfəsində qərəzli kampaniya

Sual yaranır: Azərbaycanafob dairələr niyə məhz indi fəallaşıblar. Bunun izahı başadüşüləndir. Bəlli dairələr ölkəmizi bir qayda olaraq əlamətdar hadisələr ərəfəsində hədəfə alırlar.

Bu dəfə də istisna deyil. Azərbaycan noyabr ayında BMT-nin ən böyük tədbirlərindən birinə - COP29-a ev sahibliyi edəcək. Qlobal iqlim məsələləri Bakıda müzakirə olunacaq. Bu, beynəlxalq birliyin ölkəmizə və onun Liderinə inamının ifadəsidir. Təbii ki, Azərbaycanın dünyada nüfuzunun artması bəlli dairələrdə qısqanclıqla qarşılanır və onlar belə ucuz vasitələrlə uğurlarımıza kölgə salmağa çalışırlar. Ancaq onlar nə qədər çalışsalar da hansısa bir nəticəyə nail ola bilməyəcəklər. Yel qayadan nə qopara bilər ki?

***Mübariz ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# "Yaşıl dünyada qadınların təhsili"...

## QAİ-də konfrans keçirilib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**

Tarixən Azərbaycan qadınları iti zəkası, dərin düşüncəsi ilə mədəni inkişafımızda müstəsna xidmətlər göstəriblər. 19-cu əsrin ortalarından sonra Azərbaycanda maarifçilik yüksək səviyyədə inkişaf edib. Məlumdur ki, İrəvan maarifçilik mühitinin də təhsilimizin, maarifçiliyimizin və mədəniyyətimizin inkişafında xüsusi yeri və əhəmiyyəti var. Ümumiyyətlə, Qərbi Azərbaycanda qızların təhsilə cəlb olunması xüsusi diqqət mərkəzində saxlanılırdı. Belə ki, 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində İrəvan şəhərində milli-mənəvi və maarifçilik mühiti digər müsəlman şəhərlərindən güclü olub.

Həmin dövrdə İrəvanda təhsil və maarifçilik mühitinin inkişafı qızların ibtidai təhsillə yanaşı, həm də gimnaziyada oxumasına və ali təhsil almasına imkan verib. Hələ 1850-ci ildə İrəvanda fəaliyyətə başlayan Müqəddəs Pipsimi qadın məktəbində oxuyan qızların sayı ildən-ilə artırdı. O zamanlarda qızlarımızın təhsilə cəlb olunmasında İrəvan Qızlar Gimnaziyasının adını xüsusi vurğulamaq yerinə düşər.

1884-cü ildə yaranmış İrəvan Qız progimnaziyası kadr hazırlayan üç böyük tədris müəssisəsi adı altında yaranaraq fəaliyyət göstərirdi. 91 şagirdlik progimnaziyada Xeyriyyə Cəmiyyəti və Pedaqoji Şura fəaliyyət göstərirdi, pansion yaradılmışdı və burada 8 yaşından 12 yaşınadək olan qızlar xeyriyyə vəsaiti, yuxarı yaşlılar isə öz vəsaitləri hesabına təhsil alırdılar.

İrəvan Qızlar Gimnaziyasını bitirən azərbaycanlı qızların bəziləri 1918-1920-ci illər soyqırımı nəticəsində İrəvandan didərgin düşsələr də, yerdə qalanları Sovet hakimiyyəti illərində İrəvanda xalq maarifi və savadsızlığın aradan qaldırılması istiqamətində mühüm işlər görüb, digərləri isə təhsilini xaricdə davam etdiriblər.

**140 yaşlı İrəvan Qızlar Gimnaziyası**

Bu günlərdə Qərbi Azərbaycan İcmasında (QAİ) "Yaşıl dünyada qadınların təhsili: dünəndən bu günə" mövzusunda konfrans keçirilib. Tədbir zamanı bu il İrəvan Qızlar progimnaziyasının yaradılmasından 140 il ötdüyü xatırladılıb. Bildirilib ki, İrəvanda fəaliyyət göstərən məktəblərdən biri də Müqəddəs Ripsime qızlar məktəbi idi. 1850-ci il yanvarın 2-də Qafqazın canişini Mixail Vorontsovun xanımı Yelizaveta Vorontsovanın təşəbbüsü və İrəvanda fəaliyyət göstərən Müqəddəs Nina Xeyriyyə Cəmiyyətinin idarə heyətinin qərarı ilə Müqəddəs Ripsime qadın məktəbi təsis edilib.

Qeyd edilib ki, 1884-cü il iyulun 9-da bu məktəb üçsinifli qadın progimnaziyasına çevrilmişdi. 1898-ci il mayın 30-da isə progimnaziya hazırlıq sinfi də təşkil edilməklə səkkizsinifli qadın gimnaziyasına çevrildi. Ödənişli olan bu məktəbdə imkanlı azərbaycanlıların qızları da təhsil alırdılar. Təkcə 1916-1918-ci illərdə Müqəddəs Ripsime gimnaziyasını 36 azərbaycanlı qız bitirmişdi. İrəvan quberniyasının 1914-cü ilə dair "Yaddaş kitabçası"nda göstərilir ki, bu gimnaziyada şəriət dərslərini və Azərbaycan dilini Haşım bəy Nərimanbəyov tədris edib.

**Daha yaşıl dünya üçün...**

Daha sonra tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxış edərək qadınların və uşaqların təhsilinin cəmiyyətin ən ümdə vəzifələrindən olduğunu qeyd edib. O, ölkəmizdə daim təhsilə böyük önəm verildiyini, daha yaşıl dünya üçün təhsilin, məlumatlılığın rolunun misilsiz önəmi olduğunu vurğulayıb.

**Azərbaycanda qadın hərəkatının qürurverici səhifəsi**

Tədbirdə "Qərbi Azərbaycanda milli maarifçilik mühitinin formalaşmasında azərbaycanlı ziyalı qadınların rolu" mövzusunda çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, QAİ İdarə Heyətinin üzvü, professor Mahirə Hüseynova bildirib ki, 140 il öncə İrəvanda Qızlar Gimnaziyasının yaranması tarixi hadisə olmaqla yanaşı, həm də Azərbaycan qadın hərəkatının qürurverici səhifələrindən biri kimi nəzərdən keçirilir. Bundan başqa, bu gimnaziyanın nümayəndələrinin də payına deportasiyanın acı nəticələrini yaşamaq düşüb. Qərbi azərbaycanlıların ötən əsr boyunca yaşadığı 4 deportasiya soydaşlarımızın təhsilinə də zərərsiz ötüşməyib.

Tədbirdə, həmçinin "Müstəqil Azərbaycanda təhsil ümummilli məsələ kimi", "Yaşıl dünya: Ətraf mühitin qorunmasında qadınların rolu", "Təhsilli qadın təhsilli gələcəkdir" mövzuları ətrafında çıxışlar edilib, fikir mübadilələri aparılıb.

*Yeganə BAYRAMOVA*

# Hələ də ümid edirlər...



## Beynəlxalq İtkinlər Günüdür

Haqlı və haqsız olmasından asılı olmayaraq insan həyatının hədəf alındığı istənilən qarşıdurma zamanı insanlar ölüm və işgəncələrlə üzbəüz qalırlar. Özü ilə bərabər bəlalar, ölüm-itim gətirən müharibələrin dəhşətlərini, ağrı-acısını günahsız insanlar yaşayır.

Bu gün dünyada itkin düşmüş, müharibələrdə həlak olmuş, əsir və ya girov götürülmüş minlərlə insan var. 30 avqust Beynəlxalq İtkinlər Günüdür. Həmin gün 2010-cu il dekabrın 21-də BMT-nin Baş Məclisi tərəfindən təsis edilib. İtkin düşmək əsasən terror, siyasi müharibələr və ya diktatura rejimlərində insanların zorla qaçırılmasıdır.

Belə bir günün qeyd edilməsi hüquqları pozulmuş itkinlərin taleyi haqqında ictimaiyyətin maarifləndirilməsi məqsədi daşıyır. Beynəlxalq İtkinlər Günündə bir sıra beynəlxalq və qeyri-hökumət təşkilatları hər kəsin diqqətini itkinlərin taleyinə cəlb etmək üçün müxtəlif tədbirlər keçirirlər. Beynəlxalq hüquqa müvafiq olaraq hərbi əsirlər onları əsir götürən hər hansı hərbi hissənin, yaxud da konkret hansısa xüsusi şəxslərin nəzarəti altında deyil, birbaşa düşmən dövlətin himayəsi altında olmalıdır. Onlar heç bir halda hərbi hissələrdə saxlanıla bilməz.

Azərbaycan dünyada itkin düşmüşlərlə bağlı ən ağrılı problemlərlə üzləşən ölkələrdəndir. Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın təcavüzü və işğalçılıq siyasəti nəticəsində itkin düşmüş minlərlə azərbaycanlının taleyindən bu günə qədər də xəbər yoxdur. Məlumatlar göstərir ki, bu siyahıda olan insanların əksəriyyəti erməni əsirliyində ya işgəncə, ya da xəstəlikdən həlak olub. Bu günə qədər siyahıda olanların bəzilərinin Ermənistanda və işğal olunan ərazilərdə ağır fiziki işlərdə qul kimi istifadə olunduğu haqqında faktlar mövcuddur.

**3959 nəfər itkinimiz var...**

İtkin düşənlərin ailələri daim böyük həsrət və iztirab içərisində öz əzizlərinin taleyi barədə məlumat almaq istəyirlər. Lakin erməni siyasəti müharibə qanunlarını, beynəlxalq hüququ tanımadı, barbarcasına hərəkət edərək bu insanların da taleyinə aydınlıq gətirmədi.

Erməni vandalizminin qurbanı olmuş vətəndaşlarımızla bağlı həqiqətlərin üzə çıxması həm də minlərlə gözüyaşlı ata-ananın, bacı-qardaşın, oğul-qızın təskinlik tapması, gözlərinin yollardan çəkilməsi demək olardı. Vaxt keçsə də, doğmalarının yolunu gözləyən minlərlə ailə hələ də ümidlərini üzməyib. Sözsüz ki, hər bir itkin düşmüş şəxsin taleyi faciədir. İtkin düşmüşlərlə yanaşı, onların ailələri və yaxınları da bir faciə yaşayırlar. Hələ də ömürboyu itkin sevdiyini gözləyərək saçları ağaran qızlar, əsirlikdə olan atasının həsrəti ilə böyüyüb bu gün özü ata olan, amma gözləri yollardan çəkilməyən övladlar var...

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının son məlumatına görə, Birinci Qarabağ müharibəsində 3959 nəfər Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3193 nəfəri hərbçi, 766 nəfəri mülki şəxsdir. Mülki şəxslər içərisindən 69 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 283 nəfəri qadın, 334 nəfəri yaşlı insanlar olub.

**36 uşaq və 65 qadından xəbər yoxdur**

Ermənistanın əsirliyindən azad edilmiş hərbçilərin və hadisə şahidi olmuş mülki vətəndaşların ifadələrinə və sübutlara baxmayaraq, Ermənistan bu şəxslərin əsir-girov götürülməsi və saxlanması faktını inkar edir. Beynəlxalq humanitar hüquq normalarının Ermənistan tərəfindən pozulmasının ən qabarıq nümunəsi Xocalı soyqırımıdır. 1992-ci il fevralın 26-da Xocalı şəhəri Ermənistan tərəfindən tam mühasirəyə alınaraq yerlə-yeksan edilib, dinc əhali pusquya salınaraq onlara divan tutulub. 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca vəhşicəsinə öldürülüb. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki, 130 uşaq valideynlərindən birini itirib. Aralarında 76 uşağın olduğu 487 nəfər yaralanıb. Xocalı soyqırımı zamanı yüzlərlə azərbaycanlı əsir və girov götürülüb. Onlardan 196 nəfərin, o cümlədən 36 nəfər uşaq, 65 nəfər qadının taleyi naməlum olaraq qalmaqdadır.

**Daha 37 nəfər...**

Erməni quldurları hətta beynəlxalq qurumlardan da çəkinməyiblər. Məsələn, Beynəlxalq Qırmızı Xaç Komitəsində (BQXK) əsir və girov kimi qeydiyyatda olan soydaşlarımız belə sonradan ya öldürülüb, ya da yoxa çıxarılıb. 1998-ci və 2001-ci illərdə Azərbaycana verilən rəsmi məlumatlara əsasən, hərbi əməliyyatların gedişində Ermənistan tərəfindən əsir-girov götürülmüş 54 Azərbaycan vətəndaşına Ermənistanda və keçmiş işğal edilmiş ərazilərimizdə BQXK tərəfindən saxlanma yerlərində baş çəkilib. Onlar BQXK-nin rəsmi qeydiyyatında olublar. Ancaq Ermənistan həmin 54 nəfərdən 17-sini qətlə yetirib. Digər 37 nəfərin taleyi isə bu günə qədər məlum deyil.

**6 hərbçimizin taleyi məlum deyil**

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycanın aidiyyəti qurumları tərəfindən təqdim edilmiş siyahıya əsasən, 300-ə yaxın Azərbaycan hərbçisi itkin düşmüş hesab edilirdi. Üçtərəfli Bəyanata uyğun olaraq Rusiya sülhməramlı kontingentinin və BQXK-nın yaxından iştirakı ilə həyata keçirilmiş təxirəsalınmaz axtarış tədbirləri nəticəsində itkin düşmüş hərbi qulluqçularımızın əksəriyyətinin nəşi işğaldan azad edilmiş ərazilərimizdən götürülüb və eyniləşdirilərək ailələrinə təhvil verilib. Ancaq təəssüf ki, Vətən müharibəsində iştirak etmiş 6 hərbçimizin axtarışı ilə bağlı zəruri tədbirlərin keçirilməsinə baxmayaraq, onların sonrakı taleyinin müəyyən edilməsi mümkün olmayıb. Onlar Vətən müharibəsində itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb və taleləri bu vaxtadək məlum deyil. Müharibə zamanı əsir götürüldükdən sonra azad edilmiş hərbçilərimizin sayı isə 24-dür.

Təəssüf ki, müharibələrin acı nəticələrindən insanlarımızı qorumalı olan beynəlxalq humanitar hüquq hamımıza, bütün dünya dövlətlərinə, səlahiyyətli beynəlxalq təşkilatlara məxsus olsa da, bu insanlığa yaraşmayan praktikaya qəsdən göz yumur və reaksiya vermirlər...

*Yeganə BAYRAMOVA*

# Misir: Böyük Sfinksin sirri

**Böyük Sfinks ehramı dünyanın ən sirli abidələrindəndir. Ehramın Misir sivilizasiyasından, hətta insanlığın tarixindən daha qədim olması barədə bir sıra mülahizələr irəli sürülür. Sfinks heykəlinin kənarlarında qədim daşqınlardan qalma nişanələrin, çöküntü qatlarının aşkar olunması, abidənin altında isə hələ öyrənilməmiş boşluqların mövcudluğu barədə zaman-zaman fikirlər səsləndirilib. Sfinksin üz quruluşunun hansısa qədim bir qaradərili insanın üz cizgilərini əks etdirdiyi barədə fikirlər olsa da hələlik bu abidədə kimin, hansı mifik obrazın təsvir edildiyini və bu obrazın haradan gəldiyini heç kim deyə bilməyib.**

## İki milyon yaşı olan abidə

Böyük Sfinks heykəli barədə səsləndirilən iddialardan ən birincisi abidənin yaşı haqqındadır. Sfinksin yaşının təxminən 2 milyon il olduğu təxmin edilir. Ancaq mütəxəssislər də bildirir ki, bu yaş heykəlin özünün yox, onun özülünü təşkil edən əhəngdaşının yaşıdır. Ancaq tarixçilər belə deyirlər: Gisea yaylasından Nil çayına doğru axan selin təzyiqindən oyulmuş qayanın 2 milyon illik tarixə malik olduğu güman edilir. Bu nəhəng qayanın bütöv səthi heç vaxt yonulub işlənmədiyi üçün heykəl günümüzə yarımtəbii formada gəlib çıxmışdı. Əslində qədim Misir sənətkarları, şəkillərdə də göründüyü kimi, heykəlin əsasən yanlarını orijinal formada yonmağa üstünlük vermişdilər. Təbiətin özü daşqınlar, qabarmalar, çəkilmələr və başqa proseslərin köməyi ilə bu nəhəng qayanı yonub heykələ bənzətməyə başlamasaydı, yəqin ki, qədim insanların da ağlına Sfinks kimi bir abidəni yaratmaq ideyası gəlməzdi. Bu nəhəng Sfinksdə, təbiətlə insanın yaradıcılığı, belə demək mümkünsə, birləşərək vəhdətə gəlmişdi. Çox-çox minilliklər sonra insanlar uçurumun əsasını kobud şəkildə emal edərək "pəncələr" və daha incə şəkildə Nil çayına baxan bir Sfinks heykəli ucaltdılar. Baş nahiyyə nisbətən kiçik, bədən isə uzun olsa da bu, yerləşdiyi massivin orijinal formasına uyğun gəlirdi.

Sfinksin altındakı boşluqların varlığında (hətta heykəlin özündə də) qəribə heç nə yoxdur. Mütəxəssislər Giza bölgəsindəki əhəngdaşı yaylasında qumlu küləklə aşınan çoxlu qayalar, sellər-sularla çapılmış yarğanlar, iti sellərin oyduğu mağaralar aşkar etmişlər. Əlbəttə, suda həll olunaraq formasını dəyişən bu cür əhəngdaşlarını yonmaq da o qədər çətin deyildi. Buna görə də sonralar piramidaların tikintisində həmin qayaları çaparaq material kimi istifadə edirdilər. Bəzən isə nəhəng qaya parçalarını çapıb aşağı endirməkdən vaz keçərək həmin qayalardan özül kimi yararlanır, piramidaları yüksəklikdə inşa edirdilər. Məsələn, Firon Xeopsun məqbərəsi yerləşən piramida bu cür özül üzərində inşa edildiyindən təbii yüksəklikdə yerləşir.

Giza piramidalarının yerləşdiyi ərazilərdə çoxlu sayda qədim insanların məskəni ola bilən təbii mağaralar var. Lakin nədənsə, bu mağaralar indiyədək arxeoloqlar və başqa mütəxəssislər tərəfindən araşdırılaraq tədqiq edilməyib. Bəzi tədqiqatçılar həmin mağaraların yeraltı çayların vasitəsilə dar formada yarandığını və buna görə insan məskəni üçün yararsız olduğunu, həm də insan məskəni olsa belə, indiyədək heç bir insan izinin qalmadığı fikrində olduqlarını bildirirlər.

Beləliklə, böyük Sfinks abidəsi, alternativ elmin sevdiyi yadplanetlilər və atlantidalılar mövzusunda sensasiyalı versiyalar irəli sürmək üçün heç bir əsasa imkan yaratmır. Böyük



Sfinks Misirin ən diqqətçəkən tarixi yerlərindən biridir. Abidə bütün dövrlərdə antik cazibəsi və qeyri-adi sirli görünüşü ilə daim xarici turistlərin diqqətini cəlb edir.

## Firon Xafre ilə Sfinks arasında əlaqə

Böyük Sfinksin yaxınlıqdakı Xafre piramidası ilə eyni vaxtda inşa edildiyinə dair ehtimallar var. Firon Xafrenin ölüm tarixinə görə isə pramidanın tikintisi eramızdan əvvəl 2521-ci ildən üzü bəriyə təsadüf edir. Bəzi versiyalara görə Sfinks ehramı üzərindəki başın firon Xafreyə məxsus olduğu güman edilir. Lakin, bu versiyanın həqiqətə uyğun olub-olmaması da mübahisəlidir. Mütəxəssislərin fikrincə Sfinksin zəncilərə məxsus üz cizgilərini inkar etmək mümkün deyil, Xafredə isə belə əlamətlər yoxdur.

Əslinə qalsa, Misir mənbələrində Xafre ilə Sfinks arasında hər hansı əlaqənin olmasına dair tutarlı bir dəlil yoxdur. Qədim mənbələrdə bu mövzuda yalnız bir qeydə rast gəlinib: Xafrenin atası firon Xeopsun hakimiyyəti dövründə böyük Sfinksi qumdan təmizləmişdilər. Bu fakt heykəlin Xafredən çox əvvəl meydana çıxdığını göstərir.

Ancaq eramızdan əvvəl 1-ci minilliyin ortalarında, yəni Sfinksin görünməsi üçün ən son təxmin edilən tarixdən 20 əsr sonra daş üzərinə həkk edilən qeydlər şübhə doğurdu. Sfinksi Xefra ilə birləşdirən fərziyyə hələlik aktuallığını qoruyur. Bunu instrumental üsullarla yoxlamaq da mümkün deyil. Qayanın özü, yuxarıda qeyd edildiyi kimi, çox qədimdir, lakin ondakı emal izlərinin dəqiq tarixini göstərmək mümkün deyil.

## Böyük Sfinksi kimlər inşa edib?

Heykəllə bağlı müxtəlif iddialar səslənsə də Sfinksin misirlilər tərəfindən yaradılmasına şübhə etmək üçün heç bir əsas yoxdur. Qədim Misir əsatirlərini yaradan misirlilərdən başqa heç kim şirlə insanı "hibrid"ləşdirib bu cür nəhəng obraz yarada bilməzdi. Bu gün Misirdə çoxlu sfinkslər mövcuddur, ancaq sözügedən bu Sfinks onların əcdadı və ən böyüyüdür. Bu abidə qaynaqlarda "Androsfinks" (şir bədənli firon) kimi təsnif edilir. Daha az prestijli variantlar: qoç başlı "kriyosfinkslər" və qartal başlı "ieraksfinkslər" də mövcuddur.

Bu gün öz möcüzəli piramidaları ilə bərabər, böyük Sfinks abidəsi də Misirin müqəddəs simvolu olaraq qalmaqdadır. Misirin embleminə çevrilən Sfinksin şəkilləri tez-tez markalarda, sikkələrdə və rəsmi sənədlərdə görünür. Zaman-zaman müəyyən təbii aşınmalara məruz qalan Sfinks mütəxəssislər tərəfindən təmir olunur. Qumlu qasırğalara, rütubətli və dumanlı havalara həssas olan abidəni Misir dövləti xüsusi nəzarətdə saxlayır.

*Murad Köhnəqala*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4871**
**Sifariş: 1947**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli